# 15 İYUN MİLLİ QURTULUŞ GÜNÜDÜR!


*Təhsil millətin gələcəyidir!*

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

13 iyun 2026-cı il | №21 (9175) | www.muallim.edu.az | muallim@media.edu.az


# XİLASKARLIQ MİSSİYASI



**Heydər Əliyev, Ümummilli Lider**

## "Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən qalxmasına həsr olunacaqdır"

"Müstəqillik dövrünün tələblərinə cavab verən yeni təhsil sisteminin yaradılması üçün köklü islahatların həyata keçirilməsi zəruri və təxirəsalınmazdır

Azərbaycanın elmi inkişaf etməlidir. Universitetlər, ali məktəblər də inkişaf etməlidir... Biz isə bu sahəyə hər cür kömək göstərəcəyik və mədəniyyətimiz, elmimiz, təhsilimiz, o cümlədən ali təhsilimiz, sosial sahənin bütün başqa istiqamətləri də inkişaf edəcəkdir

Təhsil sistemi elə bir sistemdir ki, burada heç bir inqilabi dəyişiklik ola bilməz. Ümumiyyətlə, bizim həyatımızın bütün sahələrində dəyişikliklər təkamül xarakteri daşıyır. Heç vaxt yol vermək olmaz ki, on illərlə yaranmış şeyi bir gündə vurub dağıdasan, ondan sonra heç bilmədiyin yeni bir qanun yaradasan

Mən bu gün bəyan edirəm ki, yaxın zamanlarda Azərbaycanda məktəb tikintisi, məktəblərin müasir avadanlıqlarla təmin olunması, təmir edilməsi ilə əlaqədar ciddi tədbirlər haqqında öz təkliflərimi irəli sürəcəyəm

Gənclərimizin əsas vəzifəsi özünü müstəqil Azərbaycan Respublikasının inkişafına həsr etməkdən, müstəqil Azərbaycan Respublikasının yaşamasına və əbədi olmasına həsr etməkdən ibarət olmalıdır

Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir... Ana dilimizin öyrənilməsi və tətbiqi sahəsində də hələ görüləsi işlər çoxdur. Ölkəmizin orta və ali məktəblərində Azərbaycan dilinin müasir dünya standartlarına, dövrün milli-mədəni inkişaf tələblərinə cavab verən tədris işinin təkmilləşdirilməsinə ehtiyac vardır

Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir"



## Bu gün 116 min 550 şagird üçün son zəng çalınacaq

Cari tədris ilində ölkə üzrə ümumilikdə 116 min 550 nəfər məzun olur. Onlardan 55 min 954 nəfəri qız, 60 min 596 nəfəri oğlan şagirdlərdir. Cari ildə işğaldan azad edilmiş ərazilərdə yerləşən ümumilikdə 25 ümumi təhsil müəssisəsində "Son zəng" tədbiri keçiriləcək ki, onlardan da 11-də bu tədbir ilk dəfə baş tutacaq. Beləliklə, 171 məzun həmin məktəblərlə vidalaşacaq.




## Azərbaycanda ilk dəfə Məktəblilərin Respublika İdman Olimpiadası keçiriləcək

Elm və Təhsil Nazirliyi və Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı, Bakı Şəhər Halqası Əməliyyat Şirkəti və müvafiq idman federasiyalarının dəstəyi ilə ölkədə ilk dəfə Məktəblilərin Respublika İdman Olimpiadası keçiriləcək. Olimpiada məktəblilər arasında idmanın inkişafı, sağlam həyat tərzinin təşviqi, fiziki hazırlığın yüksəldilməsi və istedadlı gənclərin üzə çıxarılması məqsədi daşıyır.

### Türk dünyasında təhsil sahəsində inteqrasiya dərinləşir

Bax səh.4

### Respublika Fənn Olimpiadalarının qalibləri mükafatlandırılıblar

Bax səh.5

### "Süni intellekt dövrünün müəllimi necə olmalıdır?"

Bax səh.7

### ADPU ilk dəfə beynəlxalq RUR reytinqinə daxil olub

Bax səh.8

# XİLASKARLIQ MİSSİYASI

**15 İyun Azərbaycan xalqının tarixində mühüm əhəmiyyət daşıyan Milli Qurtuluş Günüdür. Ölkəmizin müstəqilliyinin qorunması, dövlətçiliyin möhkəmləndirilməsi və sabitliyin bərqərar olması ilə yadda qalan Milli Qurtuluş Azərbaycanın müasir inkişaf yoluna çıxmasına zəmin yaradıb. Bu təqvim xalqımız üçün əsl qurtuluş tarixidir. Bu tarixi yaradan isə Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasında, möhkəmlənməsində, inkişafında müstəsna rol oynayan, daim xalqına arxalanan Ümummilli Lider Heydər Əliyevdir. Ulu Öndər 1993-cü ilin 15 iyununda xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdaraq ölkədə yaranmış mürəkkəb vəziyyətin aradan qaldırılmasına, sabitliyin və inkişafın təmin olunmasına nail oldu.**





## Milli Qurtuluş ölkəmizin təhsil sistemində tərəqqinin əsasını qoydu

Milli Qurtuluş ölkəmizin inkişafında yeni dövrün - sabitlik, milli rifah, sosial-iqtisadi həyatın dirçəlməsi üçün münbit şərait yaratdı, Azərbaycanın üzləşdiyi beynəlxalq təcriddən xilası yoluna işıq saldı. Ümummilli Liderin güclü dövlətçilik dühası sayəsində Qurtuluş dövründə formalaşdırılan siyasi və iqtisadi əsaslar sonrakı illərdə ölkənin sürətli inkişafını təmin etdi. Dövlət idarəçiliyinin təkmilləşdirilməsi, ordu quruculuğunun gücləndirilməsi və milli həmrəyliyin möhkəmləndirilməsi Azərbaycanın gələcək uğurlarının təməlini təşkil etdi. Xalqın təkidli tələbi ilə 33 il əvvəl siyasi hakimiyyətə qayıdan Heydər Əliyevin "Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən qalxmasına həsr olunacaqdır" müdrik sözləri Böyük Öndərin Azərbaycan xalqı qarşısında QURTULUŞ və xilaskarlıq missiyasının təntənəli ifadəsi idi.

### Milli Qurtuluş və təhsildə tərəqqi

Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışı dövlətimizi və xalqımızı bütün bəlalardan xilas etdi. Bütün sahələrdə qətiyyətli və inkişaf yönümlü proseslər müşayiət olundu. Milli Qurtuluşun yaratdığı sabitlik və güclü dövlət quruculuğu digər sahələrlə yanaşı təhsilin inkişafı üçün də əlverişli şərait yaratdı. Sonrakı illərdə ölkədə yeni məktəblər tikildi, təhsil müəssisələrinin maddi-texniki bazası gücləndirildi, müasir informasiya texnologiyalarının tətbiqi genişləndi. Təhsilin keyfiyyətinin yüksəldilməsi, müəllimlərin peşəkarlığının artırılması və gənclərin hərtərəfli inkişafı dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrildi. Təhsilin inkişafı ölkənin gələcəyinin təminatı kimi daim diqqət mərkəzində saxlanıldı. Milli Qurtuluşun ilk günlərində Ümummilli Liderin Heydər Əliyev təhsilin inkişafı ilə bağlı mövqeyini birmənalı olaraq bildirdi: "Müstəqillik dövrünün tələblərinə cavab verən yeni təhsil sisteminin yaradılması üçün köklü islahatların həyata keçirilməsi zəruri və təxirəsalınmazdır".

Əlbəttə ki, bu sahədə dəyişikliklərin həyata keçirilməsi üçün zəruri siyasi, iqtisadi, hüquqi mühit formalaşmalı idi. Məhz Ulu Öndərin misilsiz tarixi xidmətləri sayəsində ölkədə elm və təhsilə yanaşma dəyişdi, bu sahədə tərəqqinin əsası qoyuldu. Heydər Əliyev tərəfindən hazırlanmış sabitlik və tərəqqi konsepsiyasında milli təhsil və elm müstəsna yer tuturdu. Bu konsepsiyada "təhsil cəmiyyətin inkişafının əsas hərəkətverici qüvvəsidir" kimi fundamental fikir dayanırdı. Ulu Öndər elmə, təhsilə diqqət qayğını dövlətin prioritet strateji xətti kimi hesab edirdi.

### Elm və təhsilin böyük hamisi

Heydər Əliyev müstəqillik illərində Azərbaycanda dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsinə uyğun təhsil strategiyasının həyata keçirilməsi məqsədilə ciddi tədbirlər həyata keçirdi, mühüm tarixi fərman və sərəncamlar imzaladı. Azərbaycan təhsili və elminin böyük hamisi 1993-cü il sentyabrın 21-də Azərbaycan Milli Elmlər Akademiyasının rəhbərliyi, alimlər, ziyalılarla keçirdiyi görüşdə deyirdi: "Azərbaycanın elmi inkişaf etməlidir. Universitetlər, ali məktəblər də inkişaf etməlidir... Biz isə bu sahəyə hər cür kömək göstərəcəyik və mədəniyyətimiz, elmimiz, təhsilimiz, o cümlədən ali təhsilimiz, sosial sahənin bütün başqa istiqamətləri də inkişaf edəcəkdir...".

Ümummilli Liderin bu tarixi nitqindən sonra Azərbaycanda elm və təhsil sahəsində dövlət strategiyasını müəyyən edən islahatlar proqramının hazırlanmasına başlanıldı. Ulu Öndərin 1997-ci il yanvarın 31-də AMEA-da keçirdiyi görüşdə elm sahəsində islahatların aparılmasının zəruriliyi xüsusi qeyd olundu. Ulu Öndərin göstərişi əsasında tez bir vaxtda AMEA tərəfindən "Elmin strateji inkişafi və Azərbaycan MEA-da islahatları konsepsiyası" hazırlandı və "Elm siyasəti haqqında" Qanun layihəsi Milli Məclisə təqdim olundu.

Bu dövrdə milli təhsil sisteminin dünya standartlarına uyğunlaşdırılması üçün qanunvericilik bazası yaradıldı və müasir islahatlara start verildi. Heydər Əliyevin 30 mart 1998-ci il tarixli "Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə Dövlət komissiyası haqqında" Sərəncamı ilə ölkədə təhsil sahəsində irimiqyaslı islahatların əsası qoyuldu. Geniş müzakirələrdən sonra "Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramı" Ulu Öndər tərəfindən 1999-cu il iyunun 15-də - Milli Qurtuluş Günündə xüsusi sərəncamla təsdiqləndi və bu sənəd gələcək inkişafın yol xəritəsi oldu. İslahat proqramında nəzərdə tutulan və həyata keçirilən tədbirlər təhsilin məzmununun yeniləşdirilməsi, yeni nəsil proqram və dərsliklərin hazırlanmasına imkan verdi.

Ümummilli Lider 1999-cu ilin martında təhsil sahəsində islahatlar üzrə dövlət komissiyasının iclasındakı yekun nitqində həmin dövrü xarakterizə edərək deyirdi: "Təhsil sistemi elə bir sistemdir ki, burada heç bir inqilabi dəyişiklik ola bilməz. Ümumiyyətlə, bizim həyatımızın bütün sahələrində dəyişikliklər təkamül xarakteri daşıyır. Heç vaxt yol vermək olmaz ki, on illərlə yaranmış şeyi bir gündə vurub dağıdasan, ondan sonra heç bilmədiyin yeni bir qanun yaradasan".

2000-ci il iyunun 13-də Heydər Əliyev "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" yeni fərman imzaladı. Fərman müstəqil Azərbaycanın təhsil sistemində struktur islahatlarının başlanğıcını qoydu və milli təhsilin dünya standartlarına uyğunlaşdırılması üçün əsaslı strategiya müəyyən etdi. Təhsil sisteminin əsaslı şəkildə təkmilləşdirilməsinə, idarəetmənin müasir prinsiplər üzrə təşkilinə, təhsil sisteminin beynəlxalq standartlara uyğunlaşdırılmasına və dünya təhsil sisteminə inteqrasiyasına zəmin yaratdı. Ali təhsil müəssisələrinin şəbəkəsi optimallaşdırıldı, ölkəmizdə müəllim hazırlığının keyfiyytinin yüksəldilməsi məqsədilə Azərbaycan Müəllimlər İnstitutu va onun 12 filialı yaradıldı, müəllimlərin təkmilləşdirilməsi, ixtisasının artırılması üzrə tədbirlər həyata keçirildi. Fərmandan irəli gələrək təhsilin bütün pillələri üzrə (məktəbəqədər, ümumi orta, peşə və ali təhsil) yeni inkişaf konsepsiyaları və standartlar hazırlandı. Dünyaşöhrətli dövlət xadimi təhsil müəssisələrinin infrastrukturunun yaxşılaşdırılması və yeni müəssisələrin inşasına xüsusi diqqət ayırırdı.

2002-ci ilin sentyabrında "Bilik Günü"ndə Bakıdakı 275 nömrəli məktəbdə olarkən Heydər Əliyev bu barədə demişdir: "Mən bu gün bəyan edirəm ki, yaxın zamanlarda Azərbaycanda məktəb tikintisi, məktəblərin müasir avadanlıqlarla təmin olunması, təmir edilməsi ilə əlaqədar ciddi tədbirlər haqqında öz təkliflərimi irəli sürəcəyəm". Və çox keçmədi ki, həmin il oktyabrın 4-də Prezident Heydər Əliyev "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi haqqında" Sərəncam imzaladı. Bu sərəncam məktəblərdə təlim şəraitinin və təlim mühitinin yaradılmasında ciddi dönüşə səbəb oldu. Bu sərəncam ümumtəhsil məktəbləri şəbəkəsinin genişləndirilməsinə, maddi-texniki bazasının möhkəmləndirilməsinə etibarlı zəmin yaradıb.

"Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair proqramın (2003-2007-ci illər) təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 17 fevral 2003-cü il tarixli Sərəncamı təhsilin inkişafına yönəlmiş fəaliyyətin ardıcıl və sistemli xarakter daşıdığını göstərirdi. Bütün bunlar ümumtəhsil məktəbləri şəbəkəsinin genişləndirilməsinə, maddi-texniki bazasının möhkəmləndirilməsinə etibarlı zəmin yaratmaqla təhsilin əlçatanlığının və əhatəliliyinin təmin olunması, bu sahədə mövcud problemlərin aradan qaldırılması istiqamətində ciddi addımlar idi. 1993-2003-cü illərdə təhsil sisteminin maddi-texniki bazasının yaxşılaşdırılması istiqamətində görülən işlərə nümunə olaraq 200 yeni məktəb binasının tikilərək istifadəyə verilməsini, məcburi köçkünlərin müvəqqəti məskunlaşdığı bölgələrdə 700-dən çox ümumtəhsil məktəbi təşkil edilməsini, istedadlı uşaqlarla iş sahəsində xüsusi proqramların tətbiqi nəticəsində 12 minə yaxın şagird tutumlu 30-a yaxın gimnaziya yaradılmasını göstərmək olar.

Bütövlükdə Ulu Öndərin bu sahədə davamlı və məqsədyönlü səyləri nəticəsində 1993-2002-ci illər ərzində Azərbaycanda 137 yeni məktəb binası tikildi. Bunlardan 47-si Naxçıvan MR-in payına düşür. 1999-2002-ci illərdə xarici təşkilatlar tərəfindən respublikamızın on rayonunda 8936 yerlik 28 məktəb binası tikildi, 15 rayonda 29045 yerlik 70 məktəb binası təmir edildi.

### Təhsilli gənclik

Ümummilli Lider həm sovet dövründə, həm də ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra ölkənin ali təhsil müəssisələrinə qəbul olmuş gənclərlə müntəzəm görüşlər keçirib. Bu ənənə Ulu Öndərin dövlətçilik konsepsiyasında xüsusu yer tuturdu. Ümummilli Lider 2 fevral 1996-cı ildə Azərbaycan Respublikası gənclərinin Birinci Forumundakı nitqində bildirirdi: "Gənclərimizin əsas vəzifəsi özünü müstəqil Azərbaycan Respublikasının inkişafına həsr etməkdən, müstəqil Azərbaycan Respublikasının yaşamasına və əbədi olmasına həsr etməkdən ibarət olmalıdır".

Ulu Öndər 2002-ci ilin avqustun 30-da ali məktəblərə ən yüksək balla daxil olmuş tələbələrlə görüşündə orta təhsilin keyfiyyətinin yüksəldilməsinin ölkə üçün strateji əhəmiyyət kəsb etdiyini xüsusi vurğulayıb və bu sahədə təhsil müəssisələri qarşısında bir sıra mühüm vəzifələr qoyub: "Ümidvaram ki, bizim bugünkü gənclərimiz keçmiş dövrlərdə olan gənclərdən daha da yüksək təhsil ala biləcəklər və gələcək üçün daha da bilikli, daha da yüksək səviyyəli olacaqlar".

Heydər Əliyev görüş və çıxışlarında müstəqilliyimizin möhkəmləndirilməsi xətti ilə təhsilin müasir standartlara yaxınlaşdırılması siyasəti arasındakı əlaqəni daim önə çəkir, dünya arenasına çıxa bilən, müasir biliklərlə silahlanmış intellektual kadrlara böyük ehtiyac olduğunu bildirirdi.

Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş xaricdə təhsil ənənəsi Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir. "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" ilə minlərlə gənc dünyanın aparıcı universitetlərinə göndərilib. Təhsil sahəsində aparılan islahatlar, qəbul olunan Dövlət Proqramları, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası", Təhsilin İnkişafı Fondu, Təhsil Tələbə Krediti Fondunun yaradılması, müxtəlif Təhsil proqramlarının həyata keçirilməsi, təhsilin keyfiyyətinin yüksəldilməsi istiqamətində aparılan davamlı işlər Azərbaycanda iqtisadi tərəqqinin daha da sürətlənməsi üçün güclü potensial yaradır. Bütün bunlar bir daha təhsilimizin dövlət başçısının diqqət mərkəzində olmasının göstəricisidir.

Dövlət başçısı tərəfindən ali təhsilin əlçatanlığının artırılması, tələbələrin sosial müdafiəsinin yaxşılaşdırılması, ölkədə yüksəkixtisaslı mütəxəssislərin hazırlanması, ali təhsildə rəqabət mühitinin formalaşdırılması sahəsində də əhəmiyyətli qərarlar qəbul olunub.

Ölkə Prezidentinin sərəncamına əsasən təqaüd sistemi təkmilləşdirilib, dövlət hesabına maliyyələşən təqaüd yerlərinin sayı artırılıb.

### Ana dilini gənclərə sevdirən dahi lider

"Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir" konsepsiyasını həyata keçirən Ulu Öndər istər 70-80-ci illərdə, istərsə də müstəqil Azərbaycana rəhbərlik etdiyi dövrdə ana dilinin hüquqi statuslarının qorunmasının qeydinə qalib və bu sahədə qətiyyətli addımlar atıb. Ulu Öndərin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 2001-ci il 18 iyun tarixli Fərmanı böyük tarixi-siyasi əhəmiyyətə malikdir. Ümummilli Lider qeyd edirdi: "Ana dilimizin öyrənilməsi və tətbiqi sahəsində də hələ görüləsi işlər çoxdur. Ölkəmizin orta və ali məktəblərində Azərbaycan dilinin müasir dünya standartlarına, dövrün milli-mədəni inkişaf tələblərinə cavab verən tədris işinin təkmilləşdirilməsinə ehtiyac vardır".

Bu fərman dilimizin inkişafı və istifadəsi sahəsində meydana çıxan problemlərin həllinə yeni istiqamət verdi. Latın qrafikalı əlifbaya keçmək ideyası müstəqilliyin qorunmasında yeni bir mərhələ oldu. Beynəlxalq aləmə daha yaxın olan latın qrafikalı Azərbaycan əlifbasına keçid prosesinin sürətləndirilməsində Heydər Əliyevin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 2001-ci il 18 iyun tarixli Fərmanının mühüm rolu oldu.

Ulu Öndərin 2002-ci ildə imzaladığı "Azərbaycan Respublikasında Dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, bütün təhsil pillələrində Azərbaycan dilinin tədrisi ön plana çəkildi və qəbul imtahanlarında bu fənnin üstün mövqeyə malik olduğu xüsusi vurğulandı. Ulu Öndər təhsil işçiləri və gənclərlə çoxsaylı görüşlərində doğma ana dilinin, Azərbaycan ədəbiyyatının, tarix və coğrafiyasının dərindən öyrənilməsinin vacibliyini dəfələrlə qeyd edib, bütün bunlarla əlaqədar qarşıya çox ciddi vəzifələr qoyub.

### Milli Qurtuluşdan Şanlı Zəfərə

Müstəqilliyin ilk illərində Ümummilli Lider Heydər Əliyevin hazırladığı inkişaf və tərəqqi konsepsiyasında müasir düşüncəli, saf, sağlam əqidəli, ölkəsinə, dövlətçiliyinə sadiq, milli-mənəvi dəyərləri hər şeydən üstün tutan vətənpərvər gənclərin yetişdirilməsi ölkəmizin təhsil sistemi qarşısında mühüm vəzifə kimi qoyuldu. Gənclərin milli mənlik şüuruna və vətənpərvərlik hisslərinə malik olması üçün real işlər görüldü. Gəncliyə böyük ümidlə baxan Heydər Əliyev "Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir" deyirdi.

Azərbaycan məktəbi, təhsil sistemi bu çağırışları öz fəaliyyətində prioritet vəzifə kimi gördü və əsası Ulu Öndər tərəfindən qoyulmuş azərbaycançılıq məfkurəsinə sadiq gənclərin yetişdirilməsi missiyasının öhdəsindən layiqincə gəldi.

Vətənə, dövlətçiliyə sədaqət, ölkənin maraqlarını göz bəbəyi kimi qorumaq amalına sadiq qalan gənclik ölkə həyatının taleyüklü problemlərinin həllində ön cərgədə yer aldı. Vətən müharibəsində qazanılan tarixi Qələbədə həm də Azərbaycan təhsil sisteminin yetişdirdiyi mətin gənclərin də öz payı var.

Azərbaycan gənci, müəllimi 44 günlük Vətən müharibəsində öz sözünü dedi, Ali Baş Komandan İlham Əliyevin qətiyyətli və müdrik rəhbərliyi altında Şanlı Zəfərin əldə edilməsində, ərazi bütövlüyümüzün, suverenliyimizin tam təmin olunmasında igidlik göstərdi. Hazırda isə onlar azad olunmuş ərazilərimizin abadlaşdırılması, yenidən qurulmasında fəal iştirak edirlər.

### Azərbaycan gəncləri üçün daha geniş təhsil imkanları

Bu gün Azərbaycan gəncləri daha geniş təhsil imkanlarına malikdirlər. Onlar həm ölkə daxilində, həm də xaricdə yüksək səviyyəli təhsil almaq imkanı əldə edir, elmi və texnoloji yeniliklərə qoşulurlar. Təhsildə əldə olunan nailiyyətlər ölkənin sosial-iqtisadi inkişafına və beynəlxalq nüfuzunun artmasına mühüm töhfə verir. Beləliklə, 15 İyun Milli Qurtuluş Günü yalnız dövlətçiliyimizin xilası deyil, həm də təhsildə tərəqqinin və gələcək nəsillərin inkişafının əsasını qoyan tarixi dönüş nöqtəsidir. Bu gün Azərbaycan gəncləri müasir biliklərə yiyələnir, elm və texnologiyanın nailiyyətlərindən faydalanır, ölkəmizin inkişafında fəal iştirak edirlər. Təhsildə əldə olunan uğurlar Azərbaycanın güclənməsinə və dünya miqyasında tanınmasına xidmət edir. Milli Qurtuluş Günü bizə dövlətçiliyin, birliyin və vətən sevgisinin nə qədər vacib olduğunu xatırladır. Təhsil və elm ictimaiyyəti olaraq bu dəyərləri daim qorumaq hər birimizin vətəndaşlıq borcumuzdur.

Bu gün də gənclərimiz elm, təhsil, mədəniyyət, idman və innovasiya sahələrində uğurla irəliləyir, ölkəmizin inkişafına layiqli töhfələr verirlər. Bütün bunlar Ulu Öndər Heydər Əliyevin Milli Qurtuluş konsepsiyasının tarixi nailiyyətidir.

**Oruc MUSTAFAYEV**

# Uşaq hüquqlarının qorunması dövlət siyasətinin prioritet istiqamətlərindən biridir



## Azərbaycanda yeniyetmələrin hüquq düşüncəsinə dair tədqiqat və "Uşaqlar və hüquq" kitabı təqdim olunub

**İyunun 10-da Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşəbbüsü ilə hazırlanmış "Azərbaycanda yeniyetmələrin hüquq düşüncəsi" adlı tədqiqat hesabatının və "Uşaqlar və hüquq" adlı maarifləndirici kitabın təqdimatı keçirilib.**




Tədbirin məqsədi uşaqların və yeniyetmələrin hüquq və vəzifələri barədə məlumatlılığının artırılması, eləcə də bu istiqamətdə aparılan elmi-praktik fəaliyyətin nəticələrinin ictimaiyyətə təqdim olunması olub.

Tədbiri giriş sözü ilə açan komitə sədri Bahar Muradova qeyd edib ki, uşaq hüquqlarının müdafiəsi dövlət siyasətinin prioritet istiqamətlərindən və dövlət qurumlarının əsas fəaliyyət sahələrindən biri olmaqla yanaşı, bu istiqamətdə elmi ictimaiyyətin, vətəndaş cəmiyyəti institutlarının, ictimai sektorun və digər aidiyyəti tərəflərin fəal iştirakı da mühüm əhəmiyyət kəsb edir.

Çıxış zamanı Bahar Muradova aparılan tədqiqatın bu sahədə mövcud problemlər və imkanların müəyyənləşdirilməsi baxımından əhəmiyyətli olduğunu diqqətə çatdırıb, əldə olunan nəticələrin gələcək fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsinə, elmi, siyasi və hüquqi əsasların daha da təkmilləşdirilməsinə töhfə verəcəyini deyib.

"Uşaqlar və hüquq" kitabının hazırlanmasında əsas məqsədin uşaqların erkən yaşlardan milli-mənəvi və ailə dəyərləri əsasında formalaşmasına, hüquq düşüncəsinin inkişafına və məsuliyyətli vətəndaş kimi yetişməsinə dəstək vermək olduğunu qeyd edən sədr hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesində uşaqlarda hüquq şüurunun erkən yaşlardan formalaşdırılmasının xüsusi əhəmiyyət daşıdığını söyləyib.

Daha sonra təhsilin idarə olunması üzrə fəlsəfə doktoru, tədqiqatçı Qoşqar Məhərrəmov "Azərbaycanda yeniyetmələrin hüquq düşüncəsi" adlı tədqiqat işini təqdim edib. O bildirib ki, tədqiqatın əsas məqsədi ölkədə yeniyetmələrin hüquq düşüncəsinin mövcud vəziyyətini hərtərəfli təhlil etmək, bu sahəyə təsir göstərən amilləri müəyyənləşdirmək və mövcud boşluqların aradan qaldırılması üçün əsaslandırılmış tövsiyələr hazırlamaqdır. 2000-ə yaxın şagird arasında keçirilən sorğu əsasında hazırlanan təhlilin nəticələri, metod və strukturu barədə ətraflı məlumat verib. Uşaqların hüquq savadlılığına nail olmaq məqsədilə təklif və strateji təşəbbüsləri səsləndirib.

Ardınca "Uşaqlar və hüquq" kitabının təqdimatı keçirilib.

Vəkillər Kollegiyasının üzvü Abil Bayramov nəşrin hazırlanmasında əsas məqsədin uşaqları öz hüquq və vəzifələri barədə məlumatlandırmaq, hüquqların təmin edilməsində ailənin, məktəbin və dövlətin üzərinə düşən öhdəliklərlə onları tanış etmək, hüquqlarından səmərəli istifadə etməyə və vəzifələrinə, davranışlarına məsuliyyətlə yanaşmağa təşviq etmək olduğunu bildirib.

Qeyd edilib ki, kitab hazırlanarkən uşaqların yaş xüsusiyyətləri, maraqları və anlama səviyyələri nəzərə alınıb, hüquqi biliklər bədii və həyati situasiyalara əsaslanan qısa hekayələr vasitəsilə təqdim olunub, eyni zamanda ədalət, empatiya və bərabərlik kimi bir çox dəyərlər də aşılanıb.

Çıxış edən Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev ölkədə uşaq hüquqlarının qorunmasının dövlət siyasətinin prioritet istiqamətlərindən biri olduğunu vurğulayıb, bu yanaşmanın Ümummilli Lider Heydər Əliyevin "Uşaqlar bizim gələcəyimizdir" fikrinə əsaslandığını qeyd edib. O bildirib ki, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi ilə uşaqların və həssas qrupların hüquqlarının müdafiəsi istiqamətində ardıcıl və sistemli tədbirlər həyata keçirilir.

Kamran Əliyev çıxışında "Azərbaycan Respublikasında uşaqlara dair 2020—2030-cu illər Strategiyası"nın əhəmiyyətini qeyd edərək qanunvericiliyin daim təkmilləşdirildiyini və uşaqların hüquqlarının daha etibarlı müdafiəsi üçün kompleks islahatların aparıldığını diqqətə çatdırıb. Təqdim olunan nəşrlərin uşaqların hüquqi biliklərinin artırılması və hüquq düşüncəsinin formalaşması baxımından əhəmiyyətini qeyd edib, bu istiqamətdə təşəbbüslərin davamlı olmasının vacibliyini vurğulayıb.

Tədbirdə çıxış edən elm və təhsil naziri Emin Əmrullayev bildirib ki, istənilən mövzu üzrə müzakirələrin elmi tədqiqatlara əsaslanması daha faydalıdır. Nazir bu baxımdan təqdim olunan tədqiqatın əhəmiyyətini vurğulayaraq onun nəticələrinə metodoloji yanaşmanın vacibliyini qeyd edib.

Elm və təhsil naziri uşaqların informasiya əldə etmə mənbələrinin dəyişdiyini, sosial media və rəqəmsal platformaların artıq əsas mənbələrdən birinə çevrildiyini qeyd edib. Nazir həmçinin rəqəmsal dövrün təhsil və öyrənmə metodlarını dəyişdirdiyini, ənənəvi yanaşmalarla yanaşı yeni texnologiyaların, o cümlədən süni intellektin tədris prosesinə inteqrasiyasının zəruri olduğunu qeyd edib. Onun sözlərinə görə, əsas məqsəd bu imkanlardan təhlükəsiz və səmərəli istifadə mexanizmlərinin formalaşdırılmasıdır.

Sonda nazir təhsil sisteminin dəyişən reallıqlara uyğunlaşdırılmasının vacibliyini qeyd edərək təqdim olunan tədqiqat və nəşrlərin bu istiqamətdə müzakirələr üçün mühüm əsas yaratdığını bildirib.

Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Rəyasət Heyətinin sədri Anar Bağırov təqdim olunan tədqiqat hesabatının yeniyetmələrin hüquq düşüncəsinin formalaşması prosesini hərtərəfli araşdıran mühüm elmi mənbə olduğunu vurğulayıb. Anar Bağırov "Uşaqlar və hüquq" kitabının bu sahədə mövcud ədəbiyyat boşluğunu dolduran mühüm nəşr olduğunu da deyib. Bildirilib ki, təqdim olunan tədqiqat və kitab hüquqi maarifləndirmə sahəsində mühüm resurs olmaqla yanaşı, dövlət qurumları, təhsil müəssisələri, valideynlər və mütəxəssislər üçün də faydalı vəsait rolunu oynayacaq.

Azərbaycan Respublikasının daxili işlər nazirinin müavini İsmət Əliyev nazirlik tərəfindən uşaqların hüquqlarının müdafiəsi sahəsində həyata keçirilən əməli və institusional tədbirlərin əhəmiyyətini vurğulayıb. Nazir müavini çıxışında müasir dövrdə uşaqların qarşılaşdığı risklərin təkcə fiziki mühitlə məhdudlaşmadığını, virtual məkanın da ciddi təhlükə mənbəyinə çevrildiyini qeyd edib. O bildirib ki, sosial şəbəkələr və digər rəqəmsal platformalarda psixoloji təzyiq, zərərli kontent, şantaj və onlayn istismar halları müşahidə olunur. Bu səbəbdən uşaqların hüquqlarının qorunması, onların təhlükəsizliyinin təmin edilməsi və maarifləndirilməsi istiqamətində aidiyyəti dövlət qurumları, təhsil müəssisələri, ailələr və vətəndaş cəmiyyəti institutları ilə birgə kompleks tədbirlər həyata keçirilir, məktəblərdə görüşlər təşkil olunur və müvafiq monitorinqlər aparılır.

Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin icraçı direktoru Samir Mahmudov çıxışı zamanı uşaqların hüquq anlayışının erkən yaşlardan formalaşmasının xüsusi əhəmiyyət daşıdığını vurğulayaraq bu prosesdə ailənin və xüsusilə valideynlərin rolunu ön plana çəkib. Eyni zamanda hüquqi maarifləndirmənin genişləndirilməsinin vacibliyini qeyd edən Samir Mahmudov bu istiqamətdə həyata keçirilən kampaniyaların əhəmiyyətini yüksək qiymətləndirib, təqdim olunan tədqiqat işi və kitabı mühüm elmi mənbə kimi dəyərləndirib.

Tədbir müzakirələrlə davam edib.

# Elm və təhsil naziri Gəncədə vətəndaşları qəbul edib



İyunun 12-də elm və təhsil naziri Emin Əmrullayev Gəncə şəhərində vətəndaş qəbulu keçirib.

Qəbulda Gəncə, Samux və Kəlbəcər sakinləri iştirak ediblər.

Qəbuldan əvvəl ulu öndər Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Elm və təhsil naziri qəbula yazılmış vətəndaşları dinləyib, müraciətlərin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin aidiyyəti qurumlarının rəhbərlərinə tapşırıqlar verib.

# Emin Əmrullayev və Teymur Musayev Qarabağ Universitetinin Klinikasında olublar







## Nazirlər tibb və sağlamlıq elmləri fakültəsinin, klinikanın infrastrukturu ilə tanış olub, tələbələr, akademik və tibb heyəti ilə görüşüblər

**İyunun 11-də elm və təhsil naziri Emin Əmrullayev və səhiyyə naziri Teymur Musayev Qarabağ Universitetinin Tibb və sağlamlıq elmləri fakültəsinə və Qarabağ Universitetinin Klinikasına rəsmi səfər ediblər.**

Səfər çərçivəsində qonaqlar əvvəlcə Qarabağ Universitetinin əsas binası ilə tanış olub, universitet rəhbərliyi tərəfindən həyata keçirilən təhsil və inkişaf strategiyası barədə məlumatlandırılıblar. Daha sonra nümayəndə heyəti Tibb və sağlamlıq elmləri fakültəsinin tədris infrastrukturu — auditoriyalar, tədqiqat və tədris laboratoriyaları, həmçinin Simulyasiya Mərkəzi ilə yaxından tanış olub. Qonaqlara praktik bacarıqların inkişafına yönəlmiş tədris imkanları və tələbələrin peşəkar hazırlığı üçün yaradılmış şərait barədə ətraflı məlumat verilib.

Nümayəndə heyəti daha sonra Qarabağ Universitetinin Klinikasına baş çəkərək klinikanın şöbələri, laboratoriyaları, müasir tibbi avadanlıqları və səhiyyə xidmətlərinin təşkili ilə tanış olub.

Rəsmi proqram çərçivəsində elm və təhsil naziri Emin Əmrullayev və səhiyyə naziri Teymur Musayev fakültənin tələbələri, akademik heyəti və klinikanın əməkdaşları ilə görüş keçiriblər. Görüş zamanı ölkədə tibb təhsilinin inkişafı, səhiyyə sistemində insan resurslarının gücləndirilməsi, gənc həkimlərin hazırlığı və elmi-tədqiqat fəaliyyətinin təşviqi məsələləri müzakirə olunub.

İnteraktiv formatda keçən görüşdə nazirlər iştirakçıların suallarını cavablandıraraq dövlətin təhsil və səhiyyə sahələrinin inkişafına yönəlmiş prioritetləri barədə məlumat verib, səhiyyə sahəsində aparılan islahatlarla bağlı fikirlərini bölüşüb, gənclərin peşəkar inkişafına və keyfiyyətli tibb təhsilinin təmin edilməsinə xüsusi önəm verildiyini vurğulayıblar.

Görüş zamanı Qarabağ Universitetinin regionda yüksəkixtisaslı tibbi kadrların hazırlanmasında oynadığı rol, universitet-klinika modelinin üstünlükləri, eləcə də Qarabağda müasir səhiyyə və təhsil ekosisteminin formalaşdırılması istiqamətində görülən işlər diqqət mərkəzində olub.

Qonaqlar həmçinin universitetin tələbə yataqxanasında tələbələr üçün yaradılmış yaşayış şəraiti və təqdim olunan imkanlarla tanış olublar.

Səfər çərçivəsində qonaqlar Qarabağ Universitetinin İncəsənət fakültəsinin müəllim və tələbələrinin hazırladığı musiqi proqramını da izləyiblər.

# TÜRK DÜNYASINDA TƏHSİL SAHƏSİNDƏ İNTEQRASİYA DƏRİNLƏŞİR

## Emin Əmrullayev Türk Dövlətləri Təşkilatı Təhsil Nazirlərinin 9-cu iclasında iştirak edib

**İyunun 8-də Qazaxıstan Respublikasının Türküstan şəhərində Türk Dövlətləri Təşkilatı (TDT) Təhsil Nazirlərinin 9-cu iclası keçirilib. Qazaxıstan Respublikasının Elm və Ali Təhsil Nazirliyinin ev sahibliyi ilə təşkil olunan iclasa bu ölkənin elm və ali təhsil naziri Sayasat Nurbek sədrlik edib.İclasda "Türk dünyası vizyonu — 2040", "TDT Strategiyası 2022—2026", eləcə də TDT Zirvə görüşləri və təhsil nazirlərinin iclaslarında qəbul edilmiş qərarlar çərçivəsində təhsil sahəsində çoxtərəfli əməkdaşlığın inkişaf etdiril məsi məsələləri müzakirə olunub.**





Görüş zamanı Türk dünyasında təhsil inteqrasiyasının gücləndirilməsi, akademik mobilliyin artırılması, Türk Universitetlər Birliyinin (TÜRKÜNİB) fəaliyyətinin davamlılığının təmin edilməsi, həmçinin Türk Dünyası Ali Təhsil Məkanının yaradılması istiqamətində həyata keçirilən layihə və təşəbbüslər ətrafında fikir mübadiləsi aparılıb. Bundan başqa, iclasda ümumi təhsil sahəsində şagird və müəllim mübadilə proqramları da daxil olmaqla, birgə əməkdaşlıq imkanları müzakirə edilib.

İclasda çıxış edən elm və təhsil naziri Emin Əmrullayev TDT çərçivəsində elm və təhsil sahəsində əməkdaşlığın inkişafı istiqamətində həyata keçirilən işləri yüksək qiymətləndirib. Nazir ümumi və ali təhsil sahələrində irəli sürülən təşəbbüslərin TDT-yə üzv və müşahidəçi dövlətlər arasında akademik mobilliyin genişləndirilməsinə, universitetlərarası əlaqələrin gücləndirilməsinə, eləcə də Türk dünyasında təhsil sahəsində inteqrasiyanın dərinləşdirilməsinə töhfə verəcəyini bildirib. Nazir həmçinin Azərbaycanın Türk dünyasında ali təhsil sahəsində daha sistemli institusional əməkdaşlığın qurulmasına dair təşəbbüsünü təqdim edib.

İclasın yekununda 9-cu iclasın kommünikesi imzalanıb, bir sıra strateji sənəd və təşəbbüslər təsdiq edilib.

## Elm və təhsil naziri YÖK sədri Erol Özvarla görüşüb



**İyunun 8-də Türk Dövlətləri Təşkilatı Təhsil Nazirlərinin 9-cu görüşü çərçivəsində elm və təhsil naziri Emin Əmrullayev Türkiyə Respublikasının Ali Təhsil Şurasının (YÖK) sədri Erol Özvarla görüşüb.**

Görüş zamanı iki ölkə arasında ali təhsil sahəsində əməkdaşlığın cari vəziyyəti və gələcəkdə icrası nəzərdə tutulan təşəbbüslər müzakirə olunub. Xüsusilə hər iki ölkənin ali təhsil müəssisələri arasında əməkdaşlığın genişləndirilməsi, birgə elmi-tədqiqat layihələrinin həyata keçirilməsi, eləcə də Türkiyə-Azərbaycan Universiteti çərçivəsində əməkdaşlıq imkanları ətrafında fikir mübadiləsi aparılıb.

## Azərbaycan-Türkiyə arasında ümumi və peşə təhsili sahəsində əməkdaşlıq genişləndirilir



İyunun 8-də Türk Dövlətləri Təşkilatı (TDT) Təhsil Nazirlərinin 9-cu görüşü çərçivəsində elm və təhsil naziri Emin Əmrullayev Türkiyə Respublikasının milli təhsil naziri Yusuf Tekin ilə görüşüb.

Görüş zamanı iki ölkə arasında ümumi və peşə təhsili sahəsində əməkdaşlığın cari vəziyyəti və gələcəkdə icrası nəzərdə tutulan təşəbbüslər müzakirə olunub. Xüsusilə İstanbulda açılması planlaşdırılan ümumi təhsil müəssisəsi, eləcə də iki ölkənin peşə təhsili müəssisələri arasında əməkdaşlıq imkanları ətrafında fikir mübadiləsi aparılıb.

## Emin Əmrullayev Qırğız Respublikasının maarif naziri ilə müzakirələr aparıb

İyunun 8-də Türk Dövlətləri Təşkilatı Təhsil Nazirlərinin 9-cu görüşü çərçivəsində elm və təhsil naziri Emin Əmrullayev Qırğız Respublikasının maarif naziri Dogdurkul Kendirbayeva ilə görüşüb.

Görüş zamanı iki ölkə arasında məktəbəqədər və ümumi təhsil sahəsində əməkdaşlığın cari vəziyyəti və gələcəkdə icrası nəzərdə tutulan təşəbbüslər müzakirə olunub.



## Türk Akademiyası ortaq elmi potensialın gücləndirilməsində mühüm rol oynayır




### Elm və təhsil naziri Türk Akademiyası Elmi Şurasının 8-ci iclasında iştirak edib

**İyunun 8-də Qazaxıstan Respublikasının Türküstan şəhərində Türk Akademiyası Elmi Şurasının 8-ci iclası keçirilib.**

İclasda Türk Dövlətləri Təşkilatına üzv və müşahidəçi dövlətlərin elm və təhsil sahəsinə məsul qurumlarının rəsmi nümayəndələri, həmçinin Türk Akademiyasının prezidenti Şahin Mustafayev iştirak edib.

Görüşdə Türk Akademiyasının 2024—2025-ci illər üzrə fəaliyyəti, cari ildə həyata keçirilən layihə və tədbirlər, eləcə də 2026-cı il üçün fəaliyyət planı, prioritet tədqiqat istiqamətləri və Türk dünyası üzrə yubiley tarixləri müzakirə olunub.

İclasda çıxış edən elm və təhsil naziri Emin Əmrullayev Azərbaycanın Türk Akademiyası Elmi Şurasına sədrliyi dövründə birgə tədqiqat təşəbbüslərinin, akademik mübadilənin, habelə ali təhsil və elmi müəssisələr arasında institusional əməkdaşlığın genişləndirilməsi istiqamətində görülən işlər barədə məlumat verib.

Nazir Azərbaycanın elm və texnologiya sahəsində innovasiyayönümlü inkişaf modelinə xüsusi önəm verdiyini, süni intellekt, biotexnologiya, kvant texnologiyaları, rəqəmsal transformasiya və bərpa olunan enerji kimi sahələrin əsas istiqamətlər sırasında yer aldığını qeyd edib. Nazir Türk Akademiyasının Türk dünyasında ortaq elmi potensialın gücləndirilməsi, eləcə də tədqiqat mərkəzlərinin və bilik mübadiləsi mexanizmlərinin inkişafı baxımından mühüm rol oynadığını vurğulayıb. Həmçinin Bakıda keçirilmiş I Türkoloji Qurultayın 100 illik yubileyi ilə bağlı tədbirlərin Türk dünyasının elmi, mədəni və dil irsinin qorunması və təşviqi baxımından xüsusi əhəmiyyət daşıdığını bildirib.

İclasın sonunda Türk Akademiyası Elmi Şurasına sədrliyin Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyindən Qazaxıstan Respublikasının Elm və Ali Təhsil Nazirliyinə ötürülməsi və Elmi Şuranın 9-cu iclasının Qırğız Respublikasında keçirilməsi qərara alınıb.




## Elm və təhsil naziri TDT-nin Baş katibi ilə görüşüb

**Elm və təhsil naziri Emin Əmrullayev Türk Dövlətləri Təşkilatı (TDT) Təhsil Nazirlərinin 9-cu iclası çərçivəsində TDT-nin Baş katibi, səfir Kubanıçbek Ömüralıyev ilə görüşüb.**

Görüş zamanı Türk dünyasında ümumi və ali təhsil sahələrində birgə proqram və təşəbbüslərin həyata keçirilməsi, eləcə də Nazirlər iclası çərçivəsində qəbul olunmuş əsas qərarlar müzakirə edilib. Tərəflər həmçinin TDT çərçivəsində təhsil, elm və innovasiya sahələrində əməkdaşlığın genişləndirilməsi istiqamətində fikir mübadiləsi aparıblar.

## Azərbaycan-Qazaxıstan arasında elm və ali təhsil sahəsində əməkdaşlıq imkanları müzakirə olunub

İyunun 8-də Türk Dövlətləri Təşkilatı Təhsil Nazirlərinin 9-cu görüşü çərçivəsində elm və təhsil naziri Emin Əmrullayev Qazaxıstan Respublikasının elm və ali təhsil naziri Sayasat Nurbek ilə görüşüb.

Görüş zamanı iki ölkə arasında elm və ali təhsil sahəsində əməkdaşlığın cari vəziyyəti və gələcəkdə icrası nəzərdə tutulan təşəbbüslər müzakirə olunub. Xüsusilə hər iki ölkənin ali təhsil müəssisələri arasında əməkdaşlığın genişləndirilməsi, birgə elmi-tədqiqat layihələrinin həyata keçirilməsi imkanları ətrafında fikir mübadiləsi aparılıb.

# İSTEDAD MARAFONU

## Respublika Fənn Olimpiadalarının qalibləri mükafatlandırılıblar

### Texniki fənlər üzrə

**İyunun 10-da ADA Universitetində Respublika Fənn Olimpiadalarının texniki fənlər üzrə qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.**





Tədbir Dövlət himninin səsləndirilməsi ilə başlayıb, daha sonra şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Açılış mərasimində çıxış edən elm və təhsil nazirinin müavini Firudin Qurbanov Respublika Fənn Olimpiadalarının şagirdlərin intellektual potensialının inkişafında və gələcək uğurlarının təmin olunmasında mühüm rol oynadığını vurğulayıb. Nazir müavini qeyd edib ki, olimpiada qaliblərinin ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul hüququ əldə etməsi dövlətin istedadlı gənclərə göstərdiyi diqqət və qayğının bariz nümunəsidir.

Firudin Qurbanov bildirib ki, müasir dövrün çağırışlarına cavab verə bilən, yaradıcı və innovativ düşüncəyə malik gənclərin yetişdirilməsi təhsil sisteminin əsas prioritetlərindən biridir. Onun sözlərinə görə, olimpiadalar və digər intellektual yarışlar şagirdlərdə yaradıcı təfəkkürün, analitik düşüncənin və problem həll etmə bacarıqlarının formalaşmasına əhəmiyyətli töhfə verir.

Nazir müavini bu istiqamətdə həyata keçirilən layihələrin əhəmiyyətinə toxunaraq "Sabahın alimləri" müsabiqəsinin gənclərin elmə marağının artırılması və tədqiqat bacarıqlarının inkişafı baxımından mühüm rol oynadığını da diqqətə çatdırıb. Firudin Qurbanov olimpiadalarda iştirakın gənclər üçün yeni imkanlar yaratdığını və onların gələcək akademik nailiyyətlərinə mühüm zəmin formalaşdırdığını qeyd edib.

ADA Universitetinin prorektoru Vəfa Kazdal çıxışında əldə olunan uğurların davamlı olmasının vacibliyini vurğulayıb. O bildirib ki, qazanılan nailiyyətlər yeni başlanğıclar üçün zəmin yaradır və uğurun qorunması üçün eyni əzmkarlıqla çalışmaq lazımdır. Prorektor həmçinin qeyd edib ki, dövlət tərəfindən yaradılan müxtəlif olimpiada və xaricdə təhsil imkanları gənclərin inkişafına xidmət edir və onlar ölkəmizi beynəlxalq arenada layiqincə təmsil etməlidirlər.

Tədbirin rəsmi hissəsindən sonra texniki fənlər üzrə 27 qızıl, 51 gümüş, 73 bürünc medal qaliblərə təqdim olunub.

**Rəşid QARAYEV**

**Qeyd edək ki, 2025/2026-cı tədris ili üzrə keçirilən Respublika Fənn Olimpiadalarında ümumilikdə 73 193 nəfər şagird iştirak edib. İştirakçı aktivliyi daha çox riyaziyyat (20 026 nəfər) və Azərbaycan dili və ədəbiyyat (18 835 nəfər) fənləri üzrə müşahidə olunub. Fizika fənni üzrə isə 4 389 nəfər iştirak qeydə alınıb.**

**İştirakçıların 40 269 nəfəri qız, 32 924 nəfəri oğlan olub. Olimpiadada ümumilikdə 94 nəfər qızıl, 169 nəfər gümüş və 257 nəfər bürünc medal qazanıb.**

### Təbiət fənləri üzrə





İyunun 9-da Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) Respublika Fənn Olimpiadalarının təbiət fənləri üzrə qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.

Tədbir Dövlət himninin səsləndirilməsi ilə başlayıb.

Açılış mərasimində elm və təhsil nazirinin müavini Həsən Həsənli və ADNSU-nun rektoru Rüfət Əzizov çıxış ediblər.

Elm və təhsil nazirinin müavini Həsən Həsənli olimpiada qaliblərini təbrik edərək onların gələcəyin alimləri, ölkənin inkişafına töhfə verəcək, yeni kəşflərə imza atacaq və cəmiyyətin tərəqqisində mühüm rol oynayacaq gənclər olduğunu vurğulayıb.

Həsən Həsənli qeyd edib ki, son illər Respublika Fənn Olimpiadalarının qaliblərinin nüfuzu həm ölkə daxilində, həm də beynəlxalq müstəvidə daha da artıb. Onun sözlərinə görə, əldə olunan uğurlar Azərbaycan təhsilinin inkişafına və ölkənin beynəlxalq nüfuzunun möhkəmlənməsinə mühüm töhfə verir. Nazir müavini çıxışında qaliblərin gələcək fəaliyyətinə də toxunaraq bildirib ki, onların bu gün nümayiş etdirdiyi bilik, bacarıq və keyfiyyətlər gələcək uğurlarının əsasını təşkil edir.

Sonda qaliblərə uğurlar arzulayan Həsən Həsənli onların artıq məsuliyyətli və perspektivli bir yola uğurla qədəm qoyduqlarını vurğulayıb.

Rektor Rüfət Əzizov çıxışında vurğulayıb ki, bu il respublika fənn olimpiadalarında 70 mindən çox şagird iştirak edib. Onun sözlərinə görə, bu göstərici ölkədə güclü olimpiada hərəkatının formalaşdığını göstərir. Rektor qeyd edib ki, Azərbaycan şagirdlərinin beynəlxalq olimpiadalarda əldə etdiyi uğurlar artıq təsadüfi deyil, təhsil sahəsində uzun illər aparılan sistemli fəaliyyətin nəticəsidir.

Tədbirin rəsmi hissəsindən sonra təbiət fənləri üzrə qaliblərə mükafatlar təqdim edilib.

**Mərziyyə KAZIMZADƏ**

### Humanitar fənlər üzrə



**İyunun 11-də Bakı Dövlət Universitetində Respublika Fənn Olimpiadalarının humanitar fənlər üzrə qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.**

Tədbir Dövlət himninin səsləndirilməsi ilə başlayıb, daha sonra şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.



Açılış mərasimində çıxış edən elm və təhsil nazirinin müavini İdris İsayev bildirib ki, qaliblərin uğurlarının arxasında böyük zəhmət, əzmkarlıq və məqsədyönlü fəaliyyət dayanır. Nazir müavini qeyd edib ki, olimpiada qaliblərinin əldə etdiyi nailiyyətlər yalnız medal və mükafatlarla ölçülmür, eyni zamanda onların qazandıqları bilik, bacarıq və düşüncə tərzi gələcək uğurlarının əsasını təşkil edir.

İdris İsayev əldə olunan nəticələrdə valideynlərin və müəllimlərin rolunu xüsusi qeyd edərək onları təbrik edib, çıxışında dövlətin ən böyük sərvətlərindən birinin insan kapitalı olduğunu bildirib, ölkədə təhsilin inkişafı və gənclərin potensialının üzə çıxarılması istiqamətində həyata keçirilən tədbirlərin əhəmiyyətini vurğulayıb. Qeyd olunub ki, Respublika Fənn Olimpiadaları şagirdlərin bilik və bacarıqlarının inkişaf etdirilməsi, onların beynəlxalq səviyyədə rəqabətqabiliyyətli kadrlar kimi yetişməsi baxımından mühüm rol oynayır.

Nazir müavini olimpiada qaliblərinə gələcək fəaliyyətlərində uğurlar arzulayaraq bu nailiyyətlərin onların həyat yolunda yeni uğurların başlanğıcı olacağına əminliyini ifadə edib.

Tədbirdə çıxış edən BDU-nun rektoru Elçin Babayev bildirib ki, Respublika Fənn Olimpiadaları ölkənin ən istedadlı məktəblilərini bir araya gətirən nüfuzlu bilik yarışıdır. Rektor qeyd edib ki, olimpiadaların məqsədi şagirdlərin istedad və yaradıcılıq potensialını üzə çıxarmaq, onlarda özünəinam hissini gücləndirmək və gələcək peşə seçimlərinə dəstək olmaqdır. O vurğulayıb ki, olimpiadalar şagirdlərə öz potensiallarını nümayiş etdirmək və gələcəyə daha inamla addımlamaq imkanı da yaradır.

Tədbirin rəsmi hissəsindən sonra humanitar fənlər üzrə 32 qızıl, 62 gümüş, 89 bürünc medal qaliblərə təqdim olunub.

**Rəşid QARAYEV**

### Respublika Fənn Olimpiadaları nədir?

**Respublika Fənn Olimpiadaları hər tədris ilində bir dəfə olmaqla Elm və Təhsil Nazirliyinin müvafiq əmrinə əsasən keçirilən elm yarışıdır. Olimpiada məktəb mərhələsi, rayon (şəhər) mərhələsi, respublika mərhələsinin yarımfinal və final turları olmaqla dörd mərhələdə təşkil edilir.**

**Respublika Fənn Olimpiadaları Azərbaycan dili və ədəbiyyat, tarix, coğrafiya, riyaziyyat, fizika, kimya, biologiya və informatika olmaqla 8 fənn üzrə keçirilir və yalnız VIII–XI sinif şagirdlərini əhatə edir.**

**Olimpiada proqramı məktəb proqramı ilə məhdudlaşmır. Müvafiq proqram tədris ilinin əvvəlində təhsil idarələri vasitəsilə məktəblərə göndərilir və ARTİ-nin rəsmi saytı üzərindən yerləşdirilir.**

**Nazirlər Kabinetinin müvafiq qərarına əsasən, Respublika Fənn Olimpiadalarının qalibləri ali təhsil müəssisələrinin bir sıra ixtisaslarına müsabiqədənkənar qəbul olmaq hüququ qazanırlar.**

# Ali təhsil müəssisələrinin tələbələri arasında "Vergilər" mövzusunda keçirilən debat turnirinin qalibləri müəyyənləşib



**İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti (DVX) və Elm və Təhsil Nazirliyi arasında əməkdaşlıq çərçivəsində "Vətəndaş Cəmiyyətində Debat" İctimai Birliyinin təşkilati dəstəyi ilə ali təhsil müəssisələrinin tələbələri arasında "Vergilər" mövzusunda keçirilən debat turniri yekunlaşıb.**



Turnirin əsas məqsədi tələbələr arasında vergi mədəniyyətinin və maliyyə savadlılığının təşviqi, analitik düşüncə, məntiqi təhlil və ictimai çıxış bacarıqlarının inkişaf etdirilməsi, eləcə də vergi sahəsinə marağın artırılması olub.

DVX-nin Tədris Mərkəzinin Şamaxı rayonunda yerləşən inzibati binasında təşkil olunan turnirdə 29 ali təhsil müəssisəsini təmsil edən, Azərbaycan, ingilis və rus bölmələrindən ümumilikdə 62 debatçı təsnifat və final mərhələlərində mübarizə aparıb.

Turnirin bağlanış mərasimində elm və təhsil nazirinin müavini Firudin Qurbanov, Milli Məclisin deputatı Şahin Seyidzadə və Dövlət Vergi Xidmətinin rəis müavini Emil Qarayev iştirak ediblər.

Çıxış edən nazir müavini Firudin Qurbanov bildirib ki, bu cür təşəbbüslər gənclərdə analitik düşüncə qabiliyyətinin gücləndirilməsi, yaradıcı təfəkkürün formalaşdırılması, araşdırma və ünsiyyət bacarıqlarının inkişaf etdirilməsində mühüm rol oynayır. Xüsusilə vergi mövzusu ətrafında aparılan müzakirələr tələbələrin iqtisadi proseslərə və vətəndaş məsuliyyətinə daha yaxından yanaşmasına töhfə verir.

Milli Məclisin deputatı Şahin Seyidzadə qeyd edib ki, debat formatı gənclərdə mövqe formalaşdırmaq, əsaslandırılmış fikir irəli sürmək və arqumentasiya bacarıqlarını inkişaf etdirmək baxımından mühüm platformadır.

Emil Qarayev öz növbəsində qeyd edib ki, müasir dövrdə effektiv kommunikasiya, düzgün sual formalaşdırmaq, qarşı tərəfi dinləmək və əsaslandırılmış müzakirə aparmaq bacarıqları xüsusi əhəmiyyət daşıyır. Onun sözlərinə görə, debat turnirləri bu bacarıqların formalaşmasına və gənclərin analitik düşüncə səviyyəsinin yüksəldilməsinə xidmət edir.

"Vətəndaş Cəmiyyətində Debat" İctimai Birliyinin sədri Aydan Hüseynova isə öz çıxışında turnir haqqında ümumi statistik göstəriciləri səsləndirib və debatçılara gələcək fəaliyyətlərində uğurlar arzu edib.

DVX-nin Tədris Mərkəzinin rəis müavini Mirəli Kazımov debatın fərqli fikirlərə hörmət və həqiqəti axtarmaq sənəti olduğunu diqqətə çatdırıb və layihə rəhbəri olaraq, turnirin ədalətli və şəffaf başa çatmasında münsiflər heyətinin keyfiyyətli işini xüsusi vurğulayıb.

Çıxışlardan sonra yarışın nəticələrinə əsasən hər dil bölməsi üzrə qalib komandalar müəyyən edilib. Azərbaycan və rus dili bölmələri üzrə Azərbaycan Dövlət İqtisad Universitetinin komandaları, ingilis dili bölməsi üzrə isə Azərbaycan Dillər Universitetinin komandası kubok, qızıl medal və hədiyyələrlə təltif olunub. Digər iştirakçılar müxtəlif nominasiyalar üzrə mükafatlandırılıb, həmçinin hakimlər heyəti tərəfindən sertifikat və medallarla təltif ediliblər.



# Nazir müavini Çin Xalq Respublikasının Sian Şiyou Universitetinin nümayəndə heyəti ilə görüşüb

**Elm və təhsil nazirinin müavini Həsən Həsənli Çin Xalq Respublikasının Sian Şiyou Universitetinin nümayəndə heyəti ilə görüşüb.**

Görüş zamanı tərəflər arasında cari əməkdaşlıq və gələcəkdə icrası nəzərdə tutulan təşəbbüslər müzakirə olunub. Xüsusilə Sian Şiyou Universiteti ilə Azərbaycanın ali təhsil müəssisələri arasında əməkdaşlığın genişləndirilməsi, tələbə və elmi-akademik heyətin qarşılıqlı mübadiləsi, eləcə də birgə elmi-tədqiqat layihələrinin həyata keçirilməsi ətrafında fikir mübadiləsi aparılıb.

# Nazir müavini: Məktəblərdə uşaqların internetdən istifadəsinə nəzarət gücləndirilib

**Biz Elm və Təhsil Nazirliyi olaraq çalışırıq məktəblərdə bəzi məhdudiyyətlər qoyaq. Hazırda məktəblərdə "TikTok"a çıxış bloklanıb. Məktəblərdə uşaqların internetə çıxışı ümumiyyətlə filtr olunur. Elə mövzular var ki, onlar bloklanır. Məktəblərdə 200-dən çox təhlükəli mövzuya məhdudiyyətlər qoyulub.**

AZƏRTAC xəbər verir ki, bunu İnsan hüquqları, Ailə, qadın və uşaq məsələləri, Hüquq siyasəti və dövlət quruculuğu komitələrinin birgə iclasında İnzibati Xətalar Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsinin müzakirəsində elm və təhsil nazirinin müavini Firudin Qurbanov deyib.

Onun sözlərinə görə, dünya təcrübəsi göstərir ki, uşaqların sosial şəbəkələrə çıxışının məhdudlaşdırılması məsələsinin sadə həlli yoxdur. Bir tərəfdən, sosial şəbəkələrdən problemli istifadə depressiya, narahatlıq, kibertəqib və digər mənfi nəticələrlə əlaqələndirilir. Digər tərəfdən isə, sosial şəbəkələr ünsiyyət imkanları yaradır, ictimai iştirak üçün platforma təqdim edir, sosial dəstək almağa kömək göstərir, müxtəlif qrupların özlərini ifadə etməsinə şərait yaradır. Buna görə də əsas vəzifə uşaqların təhlükəsizliyini təmin etməklə yanaşı, onların rəqəmsal dünyanın verdiyi imkanlardan faydalanmasına şərait yaratmaqdır. Bu isə yalnız dövlətin, texnologiya şirkətlərinin, məktəblərin, valideynlərin, uşaqların birgə səyləri nəticəsində mümkün ola bilər.



# Azərbaycan Tələbə Liqasının 2025/2026 mövsümünün bağlanış mərasimi keçirilib

**Ali təhsil müəssisələrinin tələbələri arasında futzal üzrə Azərbaycan Tələbə Liqasının 2025/2026 mövsümünə yekun vurulub.**

III yer uğrunda mübarizədə Bakı Dövlət Universitetinin komandası Azərbaycan Texniki Universitetinin komandasına qalib gəlib. Azərbaycan İdman Akademiyasının komandası Azərbaycan Memarlıq və İnşaat Universitetinin komandasını məğlub edərək liqanın qalibi olub.

Liqanın ikinci yarımqrupunda mübarizə aparan komandalardan I yeri Azərbaycan Dövlət Pedaqoji Universiteti, II yeri Bakı Mühəndislik Universiteti, III yeri Milli Aviasiya Akademiyasının komandası tutub.

Oyunlardan sonra qaliblərin mükafatlandırılması mərasimi keçirilib.

Tədbirdə Elm və Təhsil Nazirliyinin, Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının, Azərbaycan Tələbə Futbol Federasiyasının, Elm və Təhsil İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin rəsmiləri, veteran futbolçular iştirak ediblər.

Bağlanış mərasimində AFFA-nın Hakimlər Komitəsinə oyunların idarə olunmasındakı səmərəli fəaliyyətinə görə "Təşəkkürnamə" təqdim olunub. Oyunlarda fərqlənən üç tələbə-futbolçu "Ən yaxşı qapıçı", "Ən məhsuldar oyunçu", "Ən yaxşı oyunçu" nominasiyaları üzrə xüsusi mükafatla təltif olunub, ikinci yarımqrupun qalib komandalarına hədiyyə, liqanın qalib komandalarına medal və pul mükafatı, çempion komandaya kubok təqdim edilib.





Qeyd edək ki, Azərbaycan Tələbə Liqası 2023-cü ildən etibarən Elm və Təhsil Nazirliyi, Azərbaycan Tələbə Futbol Federasiyası İctimai Birliyi, Elm və Təhsil İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsi və Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının təşkilatçılığı ilə keçirilir.

Azərbaycan Tələbə Liqasının 2025/2026 mövsümünə 1 noyabr 2025-ci il tarixində start verilib və liqada 14 ali təhsil müəssisəsi mübarizə aparıb.

Liqanın keçirilməsində məqsəd ali təhsil müəssisələrinin tələbələri arasında futzal idman növünün təbliğ edilməsi, onlar arasında perspektivli idmançıların aşkar edilməsi, bu idman növünə marağın artırılması, tələbələrdən ibarət futzal üzrə yığma komandanın formalaşdırılmasından ibarət olub.

# Tələbə Basketbol Liqasının 2025/2026 mövsümünə yekun vurulub



**Ali təhsil müəssisələrinin tələbələri arasında keçirilən Tələbə Basketbol Liqasının 2025/2026 mövsümünün bağlanış mərasimi baş tutub.**

III yer uğrunda mübarizədə Azərbaycan Dövlət İqtisad Universitetinin komandası Bakı Dövlət Universitetinin komandasına qalib gəlib. Gərgin keçən final oyununda Azərbaycan Texniki Universitetinin komandası Azərbaycan İdman Akademiyasının komandasını məğlub edərək liqanın qalibi olub.

Oyunlardan sonra qaliblərin mükafatlandırılması mərasimi keçirilib.

Mərasimdə Elm və Təhsil Nazirliyinin, Elm və Təhsil İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin, Azərbaycan Basketbol Federasiyasının nümayəndələri iştirak edib.

Qeyd edək ki, Tələbə Basketbol Liqası Elm və Təhsil Nazirliyi, Elm və Təhsil İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsi, Azərbaycan Basketbol Federasiyasının təşkilatçılığı ilə keçirilir.

8 ali təhsil müəssisəsinin komandasının mübarizə apardığı liqaya 2025-ci ilin noyabr ayında start verilib.



Liqanın keçirilməsində məqsəd ali təhsil müəssisələrinin tələbələri arasında basketbol idman növünün təbliği, bu idman növünə marağın artırılması, tələbələrdən ibarət yığma komandaların heyətinin müəyyənləşdirilməsi və onlar arasında vətənpərvərlik, dostluq əlaqələrinin gücləndirilməsindən ibarətdir.

# Məktəblilərin Respublika İdman Olimpiadasına start verilir

**Elm və Təhsil Nazirliyi və Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı, Bakı Şəhər Halqası Əməliyyat Şirkəti və müvafiq idman federasiyalarının dəstəyi ilə ölkədə ilk dəfə Məktəblilərin Respublika İdman Olimpiadası keçiriləcək.**

Olimpiada məktəblilər arasında idmanın inkişafı, sağlam həyat tərzinin təşviqi, fiziki hazırlığın yüksəldilməsi və istedadlı gənclərin üzə çıxarılması məqsədi daşıyır.

İştirakçılar ağırlıqqaldırma, atletika, badminton, basketbol, boks, cüdo, yunan-Roma güləşi, sərbəst güləş, bədii gimnastika, stolüstü tennis, taekvondo və velosiped idmanında yarışacaqlar. Ümumilikdə ölkəmizin 59 rayon və şəhərini 2000-dən çox məktəbli təmsil edəcək. Olimpiadada iştirak edəcək məktəblilər Elm və Təhsil Nazirliyinin, Gənclər və İdman Nazirliyinin tabeliyində, həmçinin Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən uşaq-gənclər idman məktəblərinin yetirmələridir.

Məktəblilərin Respublika İdman Olimpiadasının açılış mərasimi iyunun 20-də Bakı Kristal Zalında keçiriləcək. Yarışlar 21-26 iyun tarixlərini əhatə edəcək.



# "Süni intellekt dövrünün müəllimi necə olmalıdır?"



**Əvvəllər müəllimlərin istifadə etdiyi əsas vasitələr dərslik, lövhə və metodik vəsaitlər idisə, bu gün həmin siyahıya süni intellekt də əlavə olunur. Dünyada olduğu kimi, Azərbaycanda da təhsilin rəqəmsal transformasiyası sürətlənir. Xüsusilə Elm və Təhsil Nazirliyinin "OpenAI" ilə əməkdaşlığa başlaması və süni intellektin (Sİ) məktəblərdə tətbiqinin genişləndirilməsi istiqamətində atılan addımlar təhsil sistemində yeni mərhələnin başlandığını göstərir. Bu isə yeni sual doğurur: süni intellekt dövrünün müəllimi necə olmalıdır və onu hazırlayan universitetlər bu dəyişikliklərə nə dərəcədə hazırdır? "Azərbaycan müəllimi"nin mövzu ilə bağlı suallarını Azərbaycan Dövlət Pedaqoji Universitetin (ADPU) tədris işləri üzrə prorektoru dosent Eldar Aslanov cavablandırıb.**

## Eldar Aslanov: "Sİ müəllim hazırlığının məcburi məzmun komponentinə çevrilir"

### ""Süni intellektin əsasları" fənninin tədrisinə başlanılacaq"

*— ADPU-da müəllim hazırlığı proqramlarında süni intellektlə bağlı hansı fənlər və ya modullar tədris olunur?*

— Hazırda ADPU-da müəllim hazırlığı proqramlarına Sİ mövzularının inteqrasiyası geniş miqyasda davam edir. Universitetin müxtəlif fakültələrində rəqəmsal dövrün tələblərinə cavab verən fənlər tədris olunmaqdadır. Mövcud tədris planlarımızda "Təhsildə rəqəmsal transformasiya", "Süni intellekt və ekspert sistemləri", "Proqramlaşdırma dilləri", "Təhsildə informasiya texnologiyaları və süni intellekt əsasları" və "Müasir təlim metodları" kimi fənlər yer alır. Bununla yanaşı, müasir çağırışları rəhbər tutaraq rəqəmsal pedaqogika, Sİ əsaslı qiymətləndirmə, fərdiləşdirilmiş təlim, generativ Sİ alətlərindən istifadə, tədrisdə Sİ etikası və akademik dürüstlük kimi modulların da tədrisə dərindən inteqrasiyasını əsas strateji vəzifələrimizdən biri kimi müəyyən etmişik.

Xüsusilə vurğulamalıyam ki, universitetimiz son illərdə Sİ-nin təhsilə nəzəri deyil, məhz tətbiqi istiqamətində inteqrasiyasına xüsusi önəm verir. Bu baxımdan son dövrlərdə mühüm elmi platformalara ev sahibliyi etmişik. Ölkəmizdə rəqəmsal inkişafla bağlı qəbul edilən dövlət proqramlarına uyğun olaraq, 24 aprel 2026-cı il tarixində ADPU-nun Elmi Şurasında universitetin "Rəqəmsal İnkişaf üzrə Tədbirlər Planı" təsdiq edilib. Geniş mütəxəssis qrupu tərəfindən hazırlanan bu strateji sənəd rəqəmsallaşma strategiyasının genişləndirilməsi, Sİ-nin universitet fəaliyyətlərinə inteqrasiyası, innovasiya ekosisteminin qurulması və kibertəhlükəsizlik kimi mühüm istiqamətləri əhatə edən 48 fundamental tədbirdən ibarətdir.

Yaxın vaxtlarda Elm və Təhsil Nazirliyinin müvafiq qərarları ilə bakalavriat proqramlarının yenilənməsinə başlamağı planlaşdırırıq və bu istiqamətdə artıq konkret hədəflərimiz mövcuddur. Belə ki, 2026/2027-ci tədris ilindən müəyyən edilmiş bakalavriat və magistratura ixtisaslarında "Süni intellektin əsasları" fənninin tədrisinə başlanılacaq. Eyni zamanda, gələcək müəllimlərimizin rəqəmsal bacarıqlarını artırmaq üçün mövcud "Təhsildə İKT" fənni tamamilə yenilənərək "Təhsildə rəqəmsal bacarıqlar" fənninə transformasiya olunacaq, qarışıq təlim (Blended learning) üzrə universitetdaxili metodiki standartlar hazırlanacaq. Yeni nəsil tədris proqramlarında rəqəmsal səriştələrin, STEAM yanaşmasının və Sİ texnologiyalarının konseptual əsaslarının fənlərin təlim nəticələrinə inteqrasiyası tam təmin ediləcək.

Əlbəttə, bu yeniliklərin effektiv tətbiqi birbaşa professor-müəllim heyətimizin hazırlığından asılıdır. Bu məqsədlə universitetimizdə "Rəqəmsal dövrdə süni intellektlə yeni tədris imkanları: praktik nümunələr əsasında" mövzusunda genişmiqyaslı təlim-seminar təşkil edilib və bütün fakültələrin müəllim heyəti bu prosesə cəlb olunub. Digər tərəfdən, Elm və Təhsil Nazirliyi ilə "Microsoft" şirkəti arasındakı əməkdaşlıq çərçivəsində ali təhsil müəssisələrində vahid rəqəmsal ekosistemin formalaşdırılması prosesində ADPU öncüllərdən biridir. Universitetimizdə bütün texniki və təşkilati işlər tamamlanıb, "Microsoft" həlləri tam istifadəyə verilib. Bu platformada təqdim olunan Sİ əsaslı "Copilot" aləti müəllimlərimizə dərs planlarının tərtib edilməsi, tədris materiallarının yaradılması və qiymətləndirmənin aparılmasında əvəzsiz imkanlar yaradır. Sİ alətlərinin tətbiqi müəllimlərin bürokratik iş yükünü optimallaşdırır, tədrisin keyfiyyətini artırır və rəqəmsal bacarıqlara malik insan kapitalının inkişafına birbaşa töhfə verir.

### "Müəllim hazırlığı proqramlarımıza rəqəmsal savadlılıq, təhsildə Sİ tətbiqləri, kibertəhlükəsizlik kimi müasir məzmunlar əlavə olunub"

*— Son illərdə ADPU-da müəllim hazırlığında süni intellekt və rəqəmsal bacarıqlar istiqamətində hansı yeniliklər həyata keçirilib?*

— Son illərdə ADPU-da müəllim hazırlığının müasir standartlara uyğunlaşdırılması məqsədilə Sİ və rəqəmsal bacarıqlar istiqamətində kompleks islahatlar aparılıb. Bu yenilikləri konseptual olaraq dörd əsas istiqamətdə qruplaşdıra bilərik. İlk istiqamət birbaşa məzmun islahatları və yeni fənlərin kurikulumlara daxil edilməsidir. Belə ki, müəllim hazırlığı proqramlarımıza rəqəmsal savadlılıq, proqramlaşdırma əsasları, təhsildə Sİ tətbiqləri, rəqəmsal pedaqogika, interaktiv təlim texnologiyaları, kibertəhlükəsizlik və məlumat etikası kimi müasir məzmunlar əlavə olunub. Universitetimizin "Riyaziyyat və informatika müəllimliyi" ixtisası üzrə "Proqramlaşdırma dilləri I" və "Rəqəmsal bacarıqlar" kimi fənlərin tədris dairəsi genişləndirilib, bu kursların regional filiallarımızda da müvafiq təlimlər keçmiş pedaqoqlar tərəfindən yüksək səviyyədə tədrisi təmin edilib.

İkinci mühüm fəaliyyət istiqamətimiz xüsusi layihələr və tərəfdaşlıqlarla bağlıdır. 2022-ci ildən Elm və Təhsil Nazirliyinin dəstəyi, "Alqoritmika" şirkətinin tərəfdaşlığı ilə həyata keçirilən "#CodeForFuture" və "Rəqəmsal bacarıqlar" layihələri çərçivəsində böyük uğurlara imza atmışıq. Bu əməkdaşlıq çərçivəsində ADPU-nun təklifi ilə ixtisasların adları belə təkmilləşdirilərək "İnformatika (rəqəmsal bacarıqlar) müəllimliyi" və "Riyaziyyat və informatika (rəqəmsal bacarıqlar) müəllimliyi" formasına salınıb. Layihə çərçivəsində hər il yüzlərlə yuxarı kurs tələbəmizə kodlaşdırma, alqoritmik düşüncə və layihə əsaslı öyrənmə bacarıqları aşılanır, bu tədris ilindən isə proqrama ayrıca süni intellekt fənni də əlavə olunub. Gələcək müəllimlərimiz onlayn platformalarda praktiki layihələr icra edir və Müəllimlərin İşə Qəbulu (MİQ) imtahanlarının məzmunu ilə inteqrasiya olunmuş xüsusi modullarla işləyirlər.

Üçüncü mühüm addımımız universitet daxilində süni intellekt savadlılığının artırılması və onun tətbiq qaydalarının müəyyənləşdirilməsidir. Təlim-Tədris Mərkəzimiz və fakültələrimiz vasitəsilə "Gələcəyin intellekti: Süni intellektin tətbiqi, innovasiyası və gələcək perspektivləri" adlı seminarlar, həmçinin Sİ etikası və akademik dürüstlük mövzusunda silsilə təlimlər təşkil olunub. Bu institusional addımların məntiqi davamı olaraq, ADPU Elmi Şurasının 12 sentyabr 2025-ci il tarixli qərarı ilə ölkədə ilk dəfə "ADPU-da tədris və elmi-tədqiqat prosesində süni intellekt texnologiyalarından istifadə qaydaları" təsdiq edilib.

Nəhayət, dördüncü istiqamət kimi ölkədə fəaliyyət sahəsinə görə ilk olan STEAM Tədris Mərkəzimizin fəaliyyətini qeyd etməliyəm.

*— Elm və Təhsil Nazirliyinin "OpenAI" ilə əməkdaşlığı fonunda müəllim hazırlığında hansı dəyişikliklərə ehtiyac yarana bilər? Bu proses ADPU-nun tədris proqramlarına necə təsir göstərəcək?*

— Elm və Təhsil Nazirliyi ilə qlobal süni intellekt nəhəngi olan "OpenAI" şirkəti arasındakı əməkdaşlıq tam zamanında atılmış tarixi və mühüm bir addımdır. Sözügedən dövlət proqramları və bu strateji əməkdaşlıq gələcək müəllimlərimizin hazırlıq məzmununu, təhsilin formasını və ən əsası, məzunlarımızın sahib olmalı olduğu kompetensiyaların xarakterini yenidən formalaşdırmağı tələb edir. Müasir müəllim artıq sadəcə informasiya ötürücüsü deyil, böyük dil modellərindən, generativ süni intellekt alətlərindən tədris prosesində səmərəli və etik qaydada istifadə edən bələdçi rolunu oynamalıdır.



Bu çağırışlar fonunda ADPU-nun tədris proqramlarında köklü struktur dəyişiklikləri artıq reallığa çevrilməkdədir. Nazirliyin qərarı ilə yaradılmış yeni təhsil proqramlarının hazırlanması üzrə Komissiyanın və onun nəzdindəki İşçi qrupun fəaliyyəti nəticəsində ötən tədris ilində magistratura səviyyəsində ixtisas və ixtisaslaşmaların yeni təsnifatı hazırlanaraq təsdiq edilmişdir. Bu islahat çərçivəsində "Pedaqogika" ixtisası üzrə o vaxtadək mövcud olan ixtisaslaşma sayı 22-dən 34-ə çatdırılmış, eyni zamanda "Təhsilin psixologiyası", "Təhsil menecmenti" və "Təhsilin iqtisadiyyatı" kimi müasir sahələr təsis olunmuşdur.

Bizim üçün ən strateji yeniliklərdən biri isə "Pedaqogika" ixtisası nəzdində "Təhsil texnologiyaları" ixtisaslaşmasının açılmasıdır. Bu addımın əsas qayəsi magistratura səviyyəsində ölkəmizin təhsil sistemi üçün peşəkar "təhsil texnoloqları" yetişdirməkdir. "OpenAI" ilə tərəfdaşlıq bu mütəxəssislərin beynəlxalq resurslara çıxışını və təhsil proqramlarımızın qlobal standartlara uyğunlaşdırılmasını daha da sürətləndirəcək.

### "Əsas vəzifəmiz peşəkar rəqəmsal bacarıqlara malik, Sİ texnologiyalarından sərbəst istifadə edən yeni nəsil pedaqoqlar yetişdirməkdir"

*— Universitetdə təhsildə süni intellekt istiqamətində yeni ixtisas, ixtisaslaşma və ya sertifikat proqramlarının yaradılması nəzərdə tutulurmu?*

— Biz bu mərhələdə dar çərçivədə yeni ixtisaslar açmaqdansa, Sİ istiqamətli məzmunun bütün mövcud ixtisaslarımıza və əlaqədar fənlərə dərindən inteqrasiya edilməsini daha strateji və doğru yanaşma hesab edirik. Əsas vəzifəmiz bütün təhsil ixtisasları qrupunda və bütün təhsil səviyyələrində — ixtisasın spesifikliyini nəzərə almaqla — peşəkar rəqəmsal bacarıqlara malik, sahəvi Sİ texnologiyalarından sərbəst istifadə edən və bu alətləri öz fənninin tədrisinə uğurla tətbiq edə bilən yeni nəsil pedaqoqlar yetişdirməkdir.

Tam əminliklə inanıram ki, gələcək müəllimlərimiz üçün yaratdığımız bu institusional imkanlar onların müstəqil öyrənmə mədəniyyətini, motivasiyasını və rəqəmsal dövrün çağırışlarına çevik uyğunlaşma potensialını qat-qat artıracaq.

### "Süni intellektin müəllimin sosial-emosional və kommunikativ bacarıqlarını heç zaman əvəz edə bilməyəcək"

*— Süni intellekt alətlərinin məktəblərdə tətbiqinin genişlənməsi fonunda gələcəyin müəllimi hansı yeni kompetensiyalara malik olmalıdır?*

— Sİ-nin məktəblərdə geniş tətbiqi müəllimin təhsildəki rolunu köklü şəkildə dəyişir. Ənənəvi "məlumat ötürən müəllim" modeli öz yerini tədricən "öyrənmə dizayneri", "rəqəmsal mentor" və "Sİ texnologiyalarını idarə edən pedaqoq" profilinə ötürür. Bu səbəbdən gələcəyin müəllimi yalnız fundamental fənn bilikləri ilə kifayətlənməməli, həm də yeni nəsil rəqəmsal, pedaqoji və etik səriştələrə yiyələnməlidir. Nüfuzlu beynəlxalq təşkilatların yanaşmalarını və müasir elmi tədqiqatların nəticələrini rəhbər tutaraq, gələcəyin müəllimi üçün zəruri olan səkkiz əsas kompetensiyanı xüsusi qeyd edə bilərik.

İlk növbədə, gələcəyin müəllimi yüksək Sİ və rəqəmsal savadlılığa malik olmalıdır. Pedaqoq süni intellektin işləmə mexanizmini ümumi səviyyədə anlamalı, generativ Sİ alətlərindən səmərəli istifadə etməyi bacarmalı, bu texnologiyanın tədrisdəki imkanları ilə yanaşı, onun mövcud məhdudiyyətlərini də düzgün ayırd etməlidir. Bunun məntiqi davamı olaraq, müasir dövrdə müəllim üçün "düzgün sual vermək və tapşırıq formalaşdırmaq bacarığı", yəni prompt yazmaq və Sİ ilə səmərəli əməkdaşlıq səriştəsi ön plana çıxır. Bu kompetensiya Sİ-yə dəqiq təlimatlar verməyi, keyfiyyətli sorğular hazırlamağı və alınan nəticələri optimallaşdırmağı nəzərdə tutur. Hazırda bu istiqamət bir çox inkişaf etmiş ölkələrdə ayrıca "Pedaqoqlar üçün Prompt Mühəndisliyi" modulu kimi tədris proqramlarına daxil edilir.

Digər mühüm fəaliyyət sahəsi tənqidi düşüncə və Sİ nəticələrinin qiymətləndirilməsidir. Unutmamalıyıq ki, süni intellekt platformaları hər zaman doğru cavablar istehsal etmir; bəzən elmi dildə "hallüsinasiya" adlandırılan yanlış və ya uydurulmuş məlumatlar təqdim edə bilir. Müəllim bu qüsurları vaxtında aşkar etməli, mənbələrin etibarlılığını yoxlamalı, şagirdlərdə media və informasiya savadlılığı formalaşdırmağı bacarmalıdır. Eyni zamanda, prosesin etik və hüquqi tərəfləri də diqqətdə saxlanılmalıdır. Gələcəyin müəllimi tədrisdə akademik dürüstlük, plagiatla mübarizə, müəllif hüquqları, fərdi məlumatların məxfiliyi, şagird datasının qorunması, eləcə də süni intellekt alətlərində yarana biləcək qərəzlilik və diskriminasiya risklərindən dərindən xəbərdar olmalıdır.

Sİ təhsil mühitində fərdiləşdirilmiş təlim dizaynı üçün unikal imkanlar yaradır. Müəllim öyrənmə analitikasının (learning analytics) təqdim etdiyi məlumatları oxumağı, şagird performansını data əsasında izləməyi və hər bir şagird üçün fərdi inkişaf trayektoriyası qurmağı bacarmalıdır. Dünyada "data əsaslı tədris" (data-informed teaching) kimi tanınan bu yanaşma təhsilin keyfiyyətini maksimum dərəcədə artırır. Bu mühitdə standart informasiyanı Sİ daha sürətlə təqdim etdiyi üçün müəllimin əsas üstünlüyü onun yaradıcılığı və innovativ pedaqoji yanaşmasında olacaq. Müəllim emosional zəkası ilə şagirdləri motivasiya etməli, layihə əsaslı öyrənmə, STEAM yanaşması, oyunlaşdırma və problem əsaslı təlim kimi interaktiv metodları tədrisə uğurla inteqrasiya etməlidir.

Süni intellektin müəllimi heç bir zaman əvəz edə bilməyəcəyi ən fundamental sahə isə sosial-emosional və kommunikativ bacarıqlardır. Məktəb sadəcə quru biliklərin ötürüldüyü məkan deyil, həm də mühüm sosial inkişaf mühitidir. Müəllim empatiya, liderlik, konfliktlərin idarə olunması və inklüziv kommunikasiya vasitəsilə şagirdlərə mənəvi-psixoloji dəstək verməlidir. Nəhayət, texnologiyaların sürətlə dəyişdiyi bir dövrdə müəllim davamlı öyrənməyə və çevikliyə (lifelong learning mindset) sahib olmalıdır. Müəllim davamlı olaraq öz üzərində işləməli, yeni Sİ alətlərini çevik şəkildə mənimsəməli və öz peşəkar fəaliyyətini zamanın nəbzinə uyğun tənzimləməlidir.

Bir sözlə, gələcəyin müəllimi süni intellektlə rəqabət aparan deyil, onunla tərəfdaşlıq etməyi bacaran, texnologiyanı ali pedaqoji məqsədlərə uyğun idarə edən, etik dəyərlərə sadiq, tənqidi düşünən və insanpərvər mütəxəssis olmalıdır. Başqa sözlə desək, gələcəyin məktəbində ən vacib məsələ sadəcə "Sİ-dən istifadə etmək" deyil, "Sİ-ni düzgün pedaqoji hədəflər üçün idarə etmək" bacarığı olacaq.

### "Süni intellekt artıq müəllimin müəyyən funksiyalarını qismən öz üzərinə götürməyə başlayıb"

*— Süni intellekt gələcəkdə müəllimin bəzi funksiyalarını öz üzərinə götürə bilərmi? Bu şəraitdə ADPU 2030-cu ilin müəllimini hazırlamaq üçün hansı dəyişikliklər həyata keçirir və ya planlaşdırır?*

— Bəli, süni intellekt artıq müəllimin müəyyən funksiyalarını qismən öz üzərinə götürməyə başlayıb və bu tendensiyanın 2030-cu ilə qədər daha da sürətlənəcəyi qaçılmazdır. Lakin qlobal təhsil ekspertlərinin də yekdil rəyinə görə, süni intellekt müəllimi tamamilə əvəz etməyəcək, sadəcə onun funksional rolunu transformasiyaya uğradacaq. Sİ-nin xüsusilə pedaqoji fəaliyyətin rutin və texniki tərəflərini avtomatlaşdıracağı gözlənilir. Buraya test və yazı işlərinin ilkin qiymətləndirilməsi, dərs planlarının və fərdiləşdirilmiş tapşırıqların avtomatik tərtibi, inzibati hesabatlılıq və sənədləşmə işləri, şagird nailiyyətlərinin dərin analitika vasitəsilə təhlili və adaptiv öyrənmə platformalarının idarə edilməsi daxildir.

Bu texnoloji dəstək sayəsində müəllimlərimiz böyük bir zaman kəsiri qazanacaqlar. Nəticədə müəllimin əsas funksiyası mexaniki "məlumat ötürmək" amilindən uzaqlaşaraq mentorluq etmək, şagirdlərdə tənqidi təfəkkür formalaşdırmaq, onların sosial-emosional inkişafını dəstəkləmək və yaradıcılıq potensialını üzə çıxarmaq istiqamətində genişlənəcəkdir. Pedaqoqun əsas missiyası süni intellekt alətlərini ali təhsil hədəflərinə uyğun olaraq strateji şəkildə idarə etməkdən ibarət olacaq.

Məhz bu qlobal dəyişiklikləri və zamanın nəbzinə uyğun çağırışları öncədən görərək, "2030-cu ilin müəllimi" modelinə uyğun fundamental transformasiya strategiyamızı həyata keçiririk.

*— ADPU bu istiqamətdə hansı dəyişiklikləri həyata keçirir?*

— Universitetimizin əsas hədəfi sürətli rəqəmsallaşma kontekstində "4-cü nəsil universitet" modelini tam bərqərar etməkdir. "ADPU-2030" Strateji İnkişaf Planında universitetimizin rəqəmsallaşmış, innovativ, beynəlxalq səviyyədə rəqabətədavamlı və əmək bazarı ilə sıx inteqrasiya olunmuş müasir elm və təhsil ocağına çevrilməsi əsas prioritet kimi təsbit olunub. Bu, müəllim hazırlığında artıq ənənəvi metodologiyadan süni intellekt və data əsaslı müasir modelə keçidin rəsmi başlanğıcıdır.

Bu böyük transformasiya çərçivəsində professor-müəllim heyətimizin və inzibati əməkdaşlarımızın rəqəmsal bacarıqlarının davamlı olaraq artırılmasını strateji vəzifə olaraq görürük.

Yaxın gələcəyə yönəlmiş strateji baxışlarımıza yeni müasir ixtisasların və mikrosəriştə proqramlarının yaradılması da daxildir. Biz bir tərəfdən əmək bazarının müasir çağırışlarına cavab verən yaxın sahələr üzrə qeyri-pedaqoji ixtisasların açılmasını hədəfləyirik, digər tərəfdən isə Sİ və rəqəmsallaşmanın imkanları hesabına yeni sertifikat proqramları və mikrokredit əsaslı modullar formalaşdırırıq. Tam əminliklə deyə bilərəm ki, ADPU-da hazırda icra olunan bu genişmiqyaslı islahatlar yaxın gələcəkdə universitetimizdə "Təhsildə süni intellekt", "Rəqəmsal pedaqogika", "Öyrənmə analitikası" və "Müəllimlər üçün prompt mühəndisliyi" kimi tamamilə yeni və qabaqcıl elmi-praktiki istiqamətlərin yaranmasına möhkəm zəmin hazırlayır.

### "Rezidentura tipli müəllim hazırlığı, mentor müəllim modeli mütləq genişlənməli, tələbə biliyinin qiymətləndirilməsi əsaslı şəkildə yenilənməlidir"

*— Yaxın 5-10 ildə müəllim hazırlığında hansı dəyişikliklərin qaçılmaz olacağını düşünürsünüz?*

— Yaxın 5—10 ildə müəllim hazırlığında gözlənilən transformasiyalar təkcə sadə bir texnoloji yenilənmə ilə məhdudlaşmayacaq: burada müəllimin funksional rolu, universitetlərin tədris proqramları və bütövlükdə məktəb fəlsəfəsi köklü şəkildə dəyişəcək. Süni intellekt dalğası, rəqəmsal inqilab və əmək bazarının tamamilə yenilənən tələbləri fonunda bəzi dəyişikliklər artıq bu gündən qaçılmaz xarakter daşıyır.

İlk növbədə, müəllim hazırlığı sistemi "fənn mərkəzli" modeldən "səriştə mərkəzli" modelə keçəcəkdir. Ənənəvi yanaşmada əsas diqqət nəzəri biliklərin ötürülməsinə və fənn məzmununa yönəlirdisə, yeni dövrdə əsas hədəf problem həll etmə, tənqidi düşüncə, səmərəli kommunikasiya, yaradıcılıq və Sİ səriştələrinin aşılanması olacaq. Universitetlər artıq "müəllim nə bilir?" sualından çox "müəllim nəyi tətbiq edə bilir?" prinsipinə fokuslanacaq. Buna görə də süni intellekt müəllim hazırlığının məcburi məzmun komponentinə çevrilir və gələcəkdə bu biliklər təkcə informatika müəllimləri ilə məhdudlaşmayacaq. Bütün ixtisaslar üzrə tədris proqramlarına generativ Sİ istifadəsi, prompt yazmaq, Sİ etikası və data analitikası məcburi modullar kimi daxil edilməlidir. ADPU olaraq biz bakalavriat səviyyəsində həyata keçirdiyimiz məzmun islahatlarında bu yenilikləri geniş tətbiq etməyi nəzərdə tuturuq.

İkinci mühüm meyil Qərb təhsil məkanında olduğu kimi, ölkəmizdə də mikrokredit və mikrosertifikat sisteminin geniş yayılmasıdır. 4 illik klassik diplom modeli tədricən daha çevik səriştə modelləri ilə sintez olunacaq. Universitetlər qısamüddətli sertifikatlar, yığıla bilən kreditlər (stackable credentials) və modul əsaslı öyrənmə paketləri təklif edəcəklər. Məsələn, bir pedaqoq fəaliyyət göstərdiyi dövrdə ayrıca "Təhsildə Sİ", "Rəqəmsal qiymətləndirmə" və ya "STEAM fasilitatorluğu" kimi istiqamətlərdə mikrosertifikatlar qazana biləcək. ADPU Elmi Şurası bu qlobal çağırışları öncədən dəyərləndirərək 12 sentyabr 2025-ci il tarixində ölkədə ilk dəfə olaraq "Azərbaycan Dövlət Pedaqoji Universitetində akademik mikrokreditləşmə Qaydası"nı qəbul edib. Təhsil prosesinin bütün iştirakçıları bu yeni hüquqi imkanlardan maksimum dərəcədə faydalanmalıdırlar.

Digər bir zərurət praktiki və məktəb əsaslı hazırlığın gücləndirilməsidir. Yaxın illərdə rezidentura tipli müəllim hazırlığı (pedaqoji internatura), baza məktəbləri ilə universitet-məktəb əməkdaşlığı və mentor müəllim modeli mütləq genişlənməlidir. Universitetimiz qabaqcıl meyarları əks etdirən "Baza məktəblərinin yaradılması" təklifini və ixtisas kafedraları üçün nümunəvi iş planlarını hazırlayıb təqdim edib. Hazırda baxılmaqda olan bu təklifin reallaşması məktəb-universitet əlaqələrini daha peşəkar müstəviyə daşıyacaq.

Bununla yanaşı, universitetlərdə tələbə biliyinin qiymətləndirilməsi sistemi də əsaslı şəkildə yenilənməlidir. Süni intellekt dövründə klassik testlər, mexaniki əzbərçiliyə əsaslanan sərbəst işlər və standart esse modelləri öz effektivliyini tamamilə itirir, çünki Sİ bu tapşırıqları saniyələr içində yerinə yetirə bilir. Müəllim hazırlığında artıq tələbə portfolioları, layihə əsaslı qiymətləndirmə, performans tapşırıqları və reflektiv təhlil formaları ön plana çıxmalıdır. Daha çevik və müasir qiymətləndirmə qaydalarının hazırlanıb qəbul edilməsi çox arzuolunandır.

İnformasiyanın hər kəs üçün əlçatan olduğu bir dünyada müəllim artıq sadəcə "bilik ötürən" statusundan çıxaraq, öyrənmə mühitini quran, fərdi inkişaf trayektoriyasını tənzimləyən bir fasilitatora, mentora və kouça çevrilir.

**Mərziyyə KAZIMZADƏ**

Yeni nəşrlər

## "Təhsil müəssisələrində innovasiyaların tətbiqi sistemi"




**"Müəllim" nəşriyyatı tərəfindən Nəzakət İmamverdiyeva, Vaqif Mahmudov, Elçin Salmanov, Adil Həsənov və Şahin Məmmədlinin həmmüəllifliyi ilə "Təhsil müəssisələrində innovasiyaların tətbiqi sistemi" adlı yeni metodik vəsait nəşr olunub (Bakı: Müəllim, 2026).**

Vəsaitin elmi redaktoru professor Hikmət Əlizadə, rəyçiləri professorlar Ləzifə Qasımova və Akif Abbasov, dosent Rasim Şükürovdur.

Müasir dövrdə təhsil sisteminin inkişafı innovativ yanaşmaların tətbiqi ilə sıx bağlıdır. Təhsil müəssisələrinin rəqabətqabiliyyətliliyinin artırılması, təlim-tərbiyə prosesinin keyfiyyətinin yüksəldilməsi və insan kapitalının formalaşdırılması innovasiyaların səmərəli idarə olunmasını zəruri edir. "Təhsil müəssisələrində innovasiyaların tətbiqi sistemi" adlı kitabda təhsil sahəsində innovasiya fəaliyyətinin nəzəri, metodoloji və praktik əsasları geniş şəkildə araşdırılıb.

Vəsaitdə innovasiya anlayışının mahiyyəti, onun təhsil sistemində rolu və əhəmiyyəti izah edilir, təhsil müəssisələrinin innovativ inkişafının əsas istiqamətləri müəyyənləşdirilir. Həmmüəlliflər innovasiyaların yaranması, planlaşdırılması, tətbiqi və qiymətləndirilməsi mərhələlərini sistemli şəkildə təhlil edərək onların idarə olunması mexanizmlərini təqdim edir. Eyni zamanda təhsil menecmentində innovativ yanaşmaların tətbiqi, strateji planlaşdırma, liderlik və dəyişikliklərin idarə olunması məsələləri ətraflı şərh olunur.

Əsərdə innovasiya layihələrinin hazırlanması və həyata keçirilməsi prinsipləri, innovasiya komandasının formalaşdırılması, innovativ mühitin yaradılması və pedaqoji kollektivin dəyişikliklərə hazırlanması məsələləri xüsusi yer tutur. Müasir informasiya-kommunikasiya texnologiyalarının tədris prosesinə inteqrasiyası, rəqəmsal təhsil mühitinin qurulması, elektron resurslardan istifadə imkanları və distant təhsilin təşkili ilə bağlı aktual məsələlər də geniş şəkildə işıqlandırılır.

Kitabın mühüm cəhətlərindən biri innovasiyaların tətbiqi zamanı yaranan problemlərin və risklərin təhlil edilməsidir. Müəllif innovasiya fəaliyyətinə mane olan amilləri müəyyənləşdirir, onların aradan qaldırılması yollarını göstərir və təhsil müəssisələrində davamlı inkişafın təmin olunması üçün praktik tövsiyələr verir. Həmçinin innovasiyaların səmərəliliyinin qiymətləndirilməsi meyarları və monitorinq mexanizmləri təqdim olunur.

Metodik vəsaitdə yer alan nəzəri müddəalar praktik nümunələr, sxemlər, cədvəllər və metodik tövsiyələrlə zənginləşdirilib. Bu isə kitabın elmi-nəzəri əhəmiyyətini artırmaqla yanaşı, onun praktik istifadə imkanlarını da genişləndirir.

Kitabın sonunda mövzularla bağlı testlər və onların cavabları öz əksini tapıb.

Nəticə etibarilə, "Təhsil müəssisələrində innovasiyaların tətbiqi sistemi" kitabı təhsil sahəsində çalışan rəhbər və pedaqoji işçilər, magistrantlar, doktorantlar, təhsil menecerləri və innovasiya fəaliyyəti ilə maraqlanan tədqiqatçılar üçün dəyərli elmi-metodik mənbədir. Əsər təhsil müəssisələrinin innovativ inkişafının təmin edilməsi, idarəetmə sisteminin təkmilləşdirilməsi və müasir təhsil mühitinin formalaşdırılması istiqamətində mühüm töhfə verir.

# ADPU ilk dəfə beynəlxalq RUR reytinqinə daxil olub

**Azərbaycan Dövlət Pedaqoji Universiteti (ADPU) 2026-cı il üzrə "Round University Ranking" (RUR) beynəlxalq universitet reytinqində ilk dəfə təmsil olunub.**




RUR-un rəsmi nəticələrinə əsasən ADPU dünya üzrə 1202-ci, Azərbaycan ali təhsil müəssisələri arasında isə 18 universitet içərisində 13-cü yerdə qərarlaşıb.

Qeyd edək ki, "Round University Ranking" (RUR) dünyanın aparıcı universitetlərinin fəaliyyətini qiymətləndirən beynəlxalq reytinq sistemlərindən biridir. 2010-cu ildən fəaliyyət göstərən reytinq dünyanın 80-dən çox ölkəsindən minlərlə ali təhsil müəssisəsini müqayisəli şəkildə dəyərləndirir.

RUR universitetləri dörd əsas istiqamət — tədris, tədqiqat, beynəlxalq müxtəliflik və maliyyə dayanıqlılığı üzrə qiymətləndirir. Reytinqin formalaşdırılması zamanı 20-dən çox göstəricidən istifadə olunur və qiymətləndirmə əsasən "Web of Science" beynəlxalq elmi məlumat bazası, eləcə də universitetlərin təqdim etdiyi rəsmi statistik məlumatlar əsasında aparılır.

"AZƏRBAYCAN MÜƏLLİMİ"

Qəzet 1934-cü ildən çıxır

**Baş redaktor**
Sarvan İbrahimov

**Reklam və elanlar:** 539-20-77; elan@media.edu.az

**Ünvan:** AZ-1052, Bakı şəhəri, Nərimanov rayonu, Fətəli xan Xoyski, 109

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan nəşriyyatı" MMC-də çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya:** № 022327 **İndeks:** 0003

**Tiraj:** 32522 **Sifariş:** 747

**Məsul növbətçi:** O.Mustafayev

# Etibarsız sayılır

**Masallı rayon** Qızılağac kənd 1 nömrəli tam orta məktəbi 1991-ci ildə bitirmiş Ələkbərova Sədaqət Ələkbər qızına verilmiş A-092792 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Qəzvinoba kənd ümumi orta məktəbin IX sinfini 2008-ci ildə bitirmiş Vəliyeva (Əliyeva) Aynurə Əfləddin qızına verilmiş A-639503 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Ərkivan qəsəbə 3 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Paşayeva Ülviyyə Bəyoğlan qızına verilmiş A-641949 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Qızılavar kənd tam orta məktəbi 2008-ci ildə bitirmiş Zərbiyeva Gülnar Nazil qızına verilmiş B-507577 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universiteti** tərəfindən 2016-cı ildə Məmmədov Rafiq Fuad oğluna verilmiş A-099083 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Hacıqabul rayon** Şorbaçı kənd tam orta məktəbin IX sinfini 2012-ci ildə bitirmiş Həsənova (Əsgərova) Çiçək Ərəstun qızına verilmiş A-251617 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**M.Ə.Sabir adına Bakı Pedaqoji Məktəbi** (indiki ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci) tərəfindən 1993-cü ildə Eyvazova (Baloğlanova) Xanım Ağalar qızına verilmiş PT-I-120660 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** İsgəndərli kənd tam orta ümumtəhsil məktəbi (keçmiş Ceyrançöl) 2004-cü ildə bitirmiş Sodikov Raşid Muxlisoviçə verilmiş 075445 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon** Şadılı kənd tam orta ümumtəhsil məktəbi 2015-ci ildə bitirmiş Əhmədov Ülvü Viladin oğluna verilmiş A-423736 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Naftalan şəhər** 1 nömrəli tam orta ümumtəhsil məktəbi 2008-ci ildə bitirmiş Hüseynov Emin Musa oğluna verilmiş B-555158 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bərdə rayon** Uğurbəyli kənd tam orta ümumtəhsil məktəbi 2013-cü ildə bitirmiş Qurbanova Lalə Mayıl qızına verilmiş A-236294 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bərdə rayon** Uğurbəyli kənd tam orta ümumtəhsil məktəbi 1998-ci ildə bitirmiş Kazımov Vüsal Tofiq oğluna verilmiş A-281334 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Xızı rayon** 8 nömrəli orta texniki peşə məktəbi tərəfindən 1995-ci ildə Əliyeva Leyla Vaqif qızına verilmiş 3-0993622 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Gədəbəy rayon** Slavyanka kənd 2 nömrəli tam orta ümumtəhsil məktəbi 1988-ci ildə bitirmiş Gülməmmədov Elşad Telman oğluna verilmiş 317525 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 37 nömrəli tam orta ümumtəhsil məktəbin VIII sinfini 1975-ci ildə bitirmiş Rəsulzadə Məmməd Süleyman oğluna verilmiş 180181 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 18 nömrəli tam orta ümumtəhsil məktəbi 2015-ci ildə bitirmiş Məsimov Alı Əlövsət oğluna verilmiş A-436058 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2016-cı ildə Musayeva Nigar Bəhlul qızına verilmiş A-089555 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Sabirabad şəhər** 2 nömrəli məktəb-liseyi 2022-ci ildə bitirmiş Quluzadə (İsmayılzadə) Vüsalə Vüsal qızına verilmiş E-488060 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir şəhər** Əhməd Cavad adına tam orta ümumtəhsil məktəbi 2013-cü ildə bitirmiş Qasımova (Hüseynli) Zinyət Mobil qızına verilmiş A-215672 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Sənaye Pedaqoji Kolleci** (İndiki ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci) tərəfindən 2002-ci ildə Kərimova Arzu Əli qızına verilmiş AB-II-083801 nömrəli fərqlənmə diplomu itdiyi üçün etibarsız sayılır.

**Şabran şəhər** 1 nömrəli tam orta ümumtəhsil məktəbi 2017-ci ildə bitirmiş Səlimzadə Vüsal Eldar oğluna verilmiş E-081307 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 22 nömrəli tam orta ümumtəhsil məktəbi 2001-ci ildə bitirmiş Əliyeva Vüsalə Feyruz qızına verilmiş A-521961 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2011-ci ildə Musayeva Könül Bayəddin qızına verilmiş BB-I-016163 nömrəli fərqlənmə diplomu itdiyi üçün etibarsız sayılır.

**Şamaxı şəhər** 6 nömrəli tam orta ümumtəhsil məktəbi 2020-ci ildə bitirmiş Məmmədov Bəybala Nəriman oğluna verilmiş E-312617 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 106 nömrəli tam orta ümumtəhsil məktəbi 2007-ci ildə bitirmiş Ağayeva Könül Ərrəhman qızına verilmiş B-381845 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Xaçmaz şəhər** 7 nömrəli tam orta ümumtəhsil məktəbi 2006-cı ildə bitirmiş Hüseynova (Şerşnyova) Nadejda İvanovnaya verilmiş B-349679 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası** tərəfindən 2019-cu ildə Alməmmədov Fazil Çoban oğluna verilmiş C-056177 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir rayon** Şıxımlı kənd (keçmiş Köhnəbazar) tam orta ümumtəhsil məktəbi 1985-ci ildə bitirmiş Soltanov Rövşən Şərif oğluna verilmiş A-715748 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir rayon** Dəyirmanlı kənd tam orta ümumtəhsil məktəbi 2001-ci ildə bitirmiş Hüseynova (İslamova) Gülnisə Ağaməmməd qızına verilmiş A-581819 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Kəlbəcər rayon** 71 nömrəli tam orta məktəbi 2015-ci ildə bitirmiş Abdullayev Röyal Kürdoğlu oğluna verilmiş A-454065 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 186 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş İbrahimli Fərid Əfqan oğluna verilmiş A-095342 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhərində** yerləşən Füzuli rayon 47 nömrəli tam orta məktəbi 2019-cu ildə bitirmiş Allahverdizadə Kamran Soltan oğluna verilmiş E-244332 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Beyləqan rayon** I Şahsevən kənd 2 nömrəli tam orta ümumtəhsil məktəbi 2005-ci ildə bitirmiş Məmmədova (Savalanlı) Zibeydə Natiq qızına verilmiş A-175687 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 217 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Beybudov Elnur Balaş oğluna verilmiş A-008793 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdaş şəhər** 3 nömrəli tam orta ümumtəhsil məktəbi 2014-cü ildə bitirmiş Abdullayeva Aytən Ramis qızına verilmiş A-352900 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Tovuz rayon** Dondar Quşçu kənd tam orta ümumtəhsil məktəbi 1976-cı ildə bitirmiş Mürşüdov Coşqun Əmir oğluna verilmiş 541577 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Salyan rayon** Xələc kənd 1 nömrəli tam orta ümumtəhsil məktəbi 2007-ci ildə bitirmiş Ataşova (Məlikova) Rəmziyyə Mayıl qızına verilmiş B-467755 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Tovuz Dövlət Peşə Təhsil Mərkəzi** tərəfindən 1990-cı ildə İbrahimov Etibar Fərhad oğluna verilmiş B-467037 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 12 nömrəli tam orta ümumtəhsil məktəbi 1991-ci ildə bitirmiş Yolçuyeva Məşuqə Müsrət qızına verilmiş A-094936 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 70 nömrəli məktəb-liseyi 2012-ci ildə bitirmiş Ağalarova Şükufə Rüzgar qızına verilmiş A-096700 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universiteti** nəzdində Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci tərəfindən 2024-cü ildə Sadıxov Səxavət Nəsib oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Nərimanabad qəsəbə 1 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2010-cu ildə bitirmiş Quluzadə Zakir Səlimağa oğluna verilmiş A-999260 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Nərimanabad qəsəbə 2 nömrəli tam orta ümumtəhsil məktəbi 2012-ci ildə bitirmiş Quluzadə Zakir Səlimağa oğluna verilmiş A-169014 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Xaçmaz şəhər** 3 nömrəli tam orta ümumtəhsil məktəbi 2019-cu ildə bitirmş Məhərrəmov İsmayıl Hüseyn oğluna verilmiş E-236327 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**İmişli rayon** Yalavac kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 1997-ci ildə bitirmiş Hüseynova Aynur Yadigar qızına verilmiş B-182787 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Sabirabad rayon** Qaratəpə kənd əsas məktəbin IX sinfini 2004-cü ildə bitirmiş Abbasova Nurlanə Əliyar qızına verilmiş A-067673 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 18 nömrəli tam orta ümumtəhsil məktəbi 2012-ci ildə bitirmiş Əlizadə Cəmil Nazim oğluna verilmiş A-115933 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qax şəhər** 2 nömrəli məktəb-liseyi 2010-cu ildə bitirmiş Lətifli Şəfa Faiq qızına verilmiş B-723414 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Tərtər rayon** Seydimli kənd tam orta ümumtəhsil məktəbi 2015-ci ildə bitirmiş Tahirli Mahı Vüqar qızına verilmiş A-470618 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Neftçala şəhər** 1 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Nəcəfova Sənubər Əsəd qızına verilmiş B-338657 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Daşkəsən şəhər** 1 nömrəli tam orta məktəbin IX sinfini 2007-ci ildə bitirmiş Bağırova Aytən Çingiz qızına verilmiş 546148 nömrəli ümumi orta təhsil haqqında şəhadətrnamə itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar rayon** Yuxarı Cürəli kənd tam orta ümumtəhsil məktəbi 2024-cü ildə bitirmiş Seyfullazadə Əli Beytulla oğluna verilmiş E-756453 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Tovuz rayon** Əyyublu kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2021-ci ildə bitirmiş Bədirova Savad Vüsal qızına verilmiş C-573809 nömrəli ümumi orta təhsil haqqında attestat və 2023-cü ildə verilmiş E-624268 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Göyçay rayon** Bığır kənd 2 nömrəli tam orta ümumtəhsil məktəbi 2011-ci ildə bitirmiş Rəhimova Ləman Kərim qızına verilmiş A-483231 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Görədil kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2003-cü ildə bitirmiş Ağayeva Zəminə Kamal qızına verilmiş 638179 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 164 nömrəli tam orta ümumtəhsil məktəbi 2023-cü ildə bitirmiş İsmayılzadə Aydan Aydın qızına verilmiş E-550656 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağstafa rayon** Göycəli kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2001-ci ildə bitirmiş İsmayılova Nuranə Elman qızına verilmiş B-484513 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki şəhər** 10 nömrəli tam orta ümumtəhsil məktəbi 2017-ci ildə bitirmiş Qocayev Cümşüd Teymur oğluna verilmiş E-069330 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki rayon** Cumakənd kənd tam orta ümumtəhsil məktəbi 2004-cü ildə bitirmiş Məmmədova (Abdulkərimova) Nailə Adəm qızına verilmiş B-056058 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki rayon** Baş Göynük kənd 2 nömrəli tam orta ümumtəhsil məktəbi 2011-ci ildə bitirmiş Vəliyeva Şəfa Vəli qızına verilmiş A-066574 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki rayon** Cəyirli kənd tam orta ümumtəhsil məktəbi 2020-ci ildə bitirmiş Əliyev Şamil Qədir oğluna verilmiş E-297978 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki şəhər** 11 nömrəli tam orta ümumtəhsil məktəbi 2005-ci ildə bitirmiş Məhərrəmova (Səlimova) Elnurə Allahverdi qızına verilmiş A-164347 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 103 nömrəli tam orta məktəbin IX sinfini 2014-cü ildə bitirmiş İbrahimov Əşrəf Hafiz oğluna verilmiş A-297832 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 24 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2007-ci ildə bitirmiş Qasımzadə Sadiq Fəxrəddin oğluna verilmiş A-491504 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft Akademiyası** tərəfindən 1992-ci ildə Məmmədov Əli Yolçu oğluna verilmiş ЦВ-832322 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Şuşa Musiqi Texnikumu** tərəfindən 2009-cu ildə Hacıyeva Nərmin Vaqif qızına verilmiş BB-II-087801 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Avropa Liseyinin** IX sinfini 2024-cü ildə bitirmiş Məmmədli Fidan Rəhman qızına verilmiş C-727701 nömrəli ümumi orta təhsil haqqında fərqlənmə attestatı itdiyi üçün etibarsız sayılır.

**Qəbələ rayon** Nuc qəsəbə 2 nömrəli tam orta ümumtəhsil məktəbi 2001-ci ildə bitirmiş Mirzəliyev Vüsal Dəmir oğluna verilmiş A-440820 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 172 nömrəli tam orta ümumtəhsil məktəbi 2024-cü ildə bitirmiş Məmmədli Əhməd Nemət oğluna verilmiş E-657980 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.